Xalqın qəzeti!

# Xalq qəzeti

№ 52 (30456) 7 mart 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycan–Rusiya münasibətləri strateji müttəfiqlik müstəvisində

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri ilə görüşü olub



**Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olub.**

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Hökumətinin sədri Mixail Mişustin birgə foto çəkdirdilər.

**Görüş iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:**

– Hörmətli Mixail Vladimiroviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha görməyimə şadam. Bilirəm ki, dünən sizin həmkarınızla çox məhsuldar görüşünüz olub. O, səhər mənə yaxşı nəticələr, gələcək planlarımız haqqında məruzə edib. Biz ili uğurla başa vurmuşuq. İkitərəfli qarşılıqlı fəaliyyət nəzərdə tutduğumuz qaydada inkişaf edir. Artıq iki ildən bir az çoxdur ki, biz müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində əməkdaşlıq edirik, əlaqələrin möhkəmləndirilməsi üzrə qarşıya qoyulmuş bütün vəzifələr uğurla yerinə yetirilir.

İqtisadi-ticari sahəyə gəldikdə, həmçinin hesab edirəm ki, nəticələr tamamilə qənaətbəxşdir, 17 faizlik artım var. Zənnimcə, yaxşı göstəricidir. Artıq 4,5 milyard dollar səviyyəsinə yaxınlaşırıq. Amma təbii ki, bu, son hədd deyil. Əminəm ki, səfər zamanı əldə olunmuş razılaşmalar çərçivəsində həm növbəti ildə, həm də bu il biz ilin yekunlarına görə qarşılıqlı ticarətdə daha böyük artımın şahidi olacağıq.

Şadam ki, sənaye kooperasiyası layihələri reallaşdırılır. Bu, əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradırlar. Bütün bunlar isə sənaye sahəsində daha geniş əməkdaşlığa kömək edir.

Sizin səfərinizdən əvvəl materiallara baxdım, kənd təsərrüfatı üzrə bir-birimizi tamamlayırıq. Bizə lazım olanı sizdən əldə edirik və bu, əks istiqamətdə də həyata keçirilir. Həmçinin sevinirik ki, razılaşdığımız kimi, Rusiya bazarına Azərbaycan kənd təsərrüfatı məhsullarının tədarükünün böyük həcmdə artması uğurla davam edir.

Əlbəttə ki, Sizin də dünən geniş bəhs etdiyiniz nəqliyyat-logistika sahəsi ilə bağlı müvafiq sənədlər imzalanıb. Burada həm tranzit daşımalarının, həm də ikitərəfli yük daşımalarının artdığını görürük. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizi birləşdirən layihədir.

Bildiyiniz kimi, biz bütün zəruri məsələlərin reallaşdırılması üzrə fəal qarşılıqlı fəaliyyət göstəririk. Azərbaycan ərazisində, eləcə də Rusiya ərazisində infrastruktur mövcuddur, yeganə lazım olan planlaşdırıldığından artıq yük həcmini nəql etmək üçün onun modernləşdirilməsidir.

(ardı 2-ci səhifədə)

# Rüşvətxor, casus və ermənipərəst senator

## Başı dərddə olan Menendesə qarşı yeni ittiham irəli sürülüb

**ABŞ-dakı erməni lobbisinin əsas simalarından olan senator Robert Menendesə qarşı yeni ittiham irəli sürülüb. Rüşvət almaqda ittiham olunan, qatı ermənipərəst mövqeyi ilə seçilən Nyu-Cersi ştatının senatoru və milliyyətcə erməni olan həyat yoldaşı Nadin rüşvət işi üzrə ədalət mühakiməsinə mane olmaqda suçlanır. Bu barədə "Nyu-York Tayms" qəzeti Nyu-Yorkun Cənub Dairəsi Məhkəməsinin yenilənmiş rəyinə istinadən məlumat yayıb.**



Məhkəmənin dərc etdiyi yenilənmiş rəydə senatora və onun arvadına qarşı əvvəllər irəli sürülən bütün ittihamların öz qüvvəsində qaldığı vurğulanıb. Qeyd edilib ki, eyni zamanda, Menendes ədalət mühakiməsinə mane olmaqla bağlı yeni ittihamlara cavab verməli olacaq. Əlavə ittihamlar mayın 6-na təyin edilmiş məhkəmə iclasının keçirilmə tarixinə təsir etməyəcək.

Qeyd edək ki, 2022-ci ilin sentyabrında ABŞ Federal Prokurorluğu R.Menendes və onun həyat yoldaşını ABŞ hökumətinin məxfi məlumatlarını Misirə gizli şəkildə təqdim etmək planlarında və Nyu-Cersi ştatından olan üç iş adamına qarşı cinayət təqibinə təsir etmək cəhdlərində ittiham edib.

(ardı 4-cü səhifədə)

# Parisin Cənubi Qafqaz avantürası və Dekotininin "Tanqo məntiqi"

## Fransanın Ermənistandakı səfiri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhə altına alır

**Fransanın Ermənistandakı səfiri Olivye Dekotini "Armenpress"ə müsahibəsində təmsil etdiyi ölkənin Ermənistanla işbirliyi baxımından bir sıra məqamları açıqlayıb. Yazımızda həmin məqamlardan söz açacaq, mövcud xüsusda səfirin timsalında Fransanın Azərbaycan – Ermənistan münasibətlərinin hazırkı durumuna yanaşmasındakı bəzi xarakterik cəhətlərin üzərində dayanacağıq.**



Səfir Dekotini, ilk növbədə, Fransanın timsalında Avropa İttifaqının Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq üçün hərəkətə keçməsinə dair fikirlərlə bağlı mövqeyini açıqlayıb. Nəzərə alaq ki, o, baxışlarını Bakının Parisi Ermənistanın silahlandırılmasında, Cənubi Qafqaz regionunda gərginlik yaratmaqda günahlandırması kontekstində ifadə edib.

Sən demə, Parisdə Cənubi Qafqaz müstəvisində təsir dairəsi formalaşdırmağı yox, dövlətlərin suverenliklərini və ərazi bütövlüklərini müdafiə hüququnu düşünürmüşlər. Hər halda, səfirin dediyi budur. Əlbəttə, onun belə yanaşması ağ yalandır. Sual olunur: Fransa bütün dövlətlərinmi ərazi bütövlüyü və suverenliyi məsələsinə həssasmı yanaşır? Əlbəttə, yox!

Ermənilərin tarixən Fransa ilə sıx əlaqələrinin mövcudluğu faktoru önəmlidir. Cənab Dekotini bir balaca səmimi davransaydı, məhz bu amili qabardardı. Əlbəttə, Fransa kimi qeyri-səmimi, haqsız və ədalətsiz mövqeyi ilə seçilən ölkənin ali diplomatik təmsilçisindən səmimiyyət gözləmək sadəlövhlük olardı. Çünki bu adamın təməl prinsiplərlə manipulyasiya etdiyi aşkardır.

Məsələn, Dekotini bildirir ki, BMT Nizamnaməsinə görə, qurumun bütün üzvləri bir-birinin ərazi bütövlüklərini və suverenliklərini tanımalı, dəstəkləməlidirlər və bu, ortaq öhdəlikdir. Görəsən, Azərbaycanın torpaqları otuz ilə yaxın işğalda qalanda, Fransa BMT-nin Nizamnaməsini düşünürdümü? Xeyr! Hətta, Paris qurumun Təhlükəsizlik Şurasının işğala son qoyulmasına dair çağırışının əksini tapdığı dörd qətnaməni də heçə sayırdı. İndi, Fransa, guya, ali dəyərləri qoruyurmuş. Dekotini dedi, biz inandıq...

(ardı 4-cü səhifədə)

# Ermənilərin türk-islam mədəni irsinə qarşı səlib yürüşü

Səhifə ⇨ 6

# Şimal qonşumuzla iqtisadi əlaqələrin yeni üfüqləri

**Azərbaycan Rusiyanın aparıcı xarici iqtisadi tərəfdaşlarından biridir. Hər iki ölkənin nəqliyyat, maşınqayırma, tikinti, konsaltinq və digər sahələrində əməkdaşlıq uğurla inkişaf edir, iqtisadi potensialın reallaşdırılması, qarşılıqlı ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, ticarət dövriyyəsi strukturunun şaxələndirilməsi diqqət mərkəzində saxlanılır.**



İkitərəfli münasibətlərdə iqtisadi-ticarət tərəfdaşlığının gücləndirilməsi məqsədilə səmərəli mexanizmlər tətbiq olunur. Bu baxımdan, Azərbaycan–Rusiya Hökumətlərarası Komissiyası, Azərbaycan–Rusiya və Rusiya–Azərbaycan işgüzar şuraları əlverişli platformalar kimi fəaliyyət göstərir. Rusiya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir və respublikamızın qeyri-neft məhsullarının ixracında birinci yerdədir.

(ardı 9-cu səhifədə)

# "Şəfəq" layihəsi Qarabağa şəfəq saçacaq



**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda "Şəfəq" layihəsi çərçivəsində fotovoltaik (PV) günəş elektrik stansiyasının tikinti işlərinə bu ilin ikinci yarısında başlanacaq. Bu məqsədlə Azərbaycan hökuməti ilə BP şirkəti arasında 2021-ci ildə əməkdaşlıq sazişi imzalanıb. Həmin sənəd "Şəfəq" layihəsini həyata keçirməsi üçün BP şirkətinə müstəsna hüquq verir. Layihəyə Azərbaycanın Cəbrayıl rayonunda yerləşən yerüstü günəş enerjisinin generasiyası sistemi (günəş qurğusu) və əlaqədar infrastruktur daxildir.**

Layihənin operatoru "Lighsource BP" şirkətidir. Yeri gəlmişkən, günəş elektrik stansiyasının quraşdırılması sahəsində yüksək beynəlxalq təcrübəyə malik olan "Lighsource" şirkəti artıq BP tərəfindən alınıb. Şirkət seçilmiş sahələrdə günəş panellərinin və əlaqədar qurğuların quraşdırılması üçün müstəsna hüquqla BP şirkətinin adından işlənməni həyata keçirən tərəf qismində çıxış edir. Artıq BP şirkəti "Şəfəq" layihəsi üzrə Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin ilkin variantını hazırlayaraq ictimaiyyətin müzakirəsinə verib. Məlumat üçün bildirək ki, ƏMSSTQ sənədində "Şəfəq" layihəsi üzrə aparılacaq fəaliyyətlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və tövsiyə edilən təsirazaltma tədbirləri təsvir edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə hər hansı mənfi təsirlərinin müəyyənləşdirilməsini və minimuma endirilməsini, mümkün olduqda isə aradan qaldırılmasını təmin etməkdir.

(ardı 7-ci səhifədə)

# Tramp–Bayden: Matç-revanş başlayır

**2024-cü ildə Ağ Ev uğrunda ən mühüm mübarizə mərhələsi – 5 mart "super çərşənbə axşamı" artıq başa çatıb. Məhz bu gün Ağ ev uğrunda marafonda iki əsas namizədin - demokratları təmsil edən Co Baydenin və respublikaçıların əsas namizədi Donald Trampın hazırkı mövqeyi barədə aydın təsəvvür formalaşdıracaqdı.**



Elə belə də oldu. "Super çərşənbə axşamı"nın ilkin nəticələri elan olunandan dərhal sonra bəlli oldu ki, 2024-cü il seçkiləri, Trampın dörd il əvvəlki məğlubiyyətindən sonra baş tutacaq matç-revanşı olacaq. Çünki bu praymerizlərin nəticələrinə əsasən, Ağ Evin başçısı Bayden və eks-prezident Tramp, hələ de-yure olmasa da, de-fakto öz partiyalarının əsas namizəd nominasiyasına layiq görüldülər.

(ardı 11-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri ilə görüşü olub



**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə ki, humanitar sahə. Burada, zənnimcə, Rusiya ilə Azərbaycan arasında münasibətlər iki qonşu dost dövlətlərin münasibətləri üçün nümunə ola bilər. Azərbaycanın 26 ali məktəbində rus dilində təhsil həyata keçirilir, 16 min Azərbaycan vətəndaşı olan tələbə rus dilində təhsil alır. Həmçinin 324 orta məktəbdə təhsil rus dilindədir. Biz onilliklər ərzində xalqlarımızı birləşdirən bütün yaxşı cəhətləri qorumuşuq və qarşılıqlı fəaliyyət göstərdiyimiz ictimai-siyasi formasiyadan asılı olmayaraq, xalqlarımız arasında dostluq əlaqələri həmişə dövlətlərarası münasibətlərin bünövrəsi olub. Bu gün isə dövlətlərarası münasibətlərin forma və məzmun etibarilə keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi bir vaxtda, təbii ki, bu, həmçinin ölkələrimizdə ictimaiyyət tərəfindən də dəstəklənir. Beləliklə, əminəm ki, ötən il olduğu kimi, biz bu ili də yaxşı nəticələr ilə başa vuracağıq. Müttəfiqlik qarşılıqlı fəaliyyətimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə möhkəmlənəcək, həmçinin bu, regional sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Sizi bir daha salamlayıram və səfərinizin artıq başa çatdığını nəzərə alaraq, yaxşı yol arzulayıram. Əlbəttə, hesab edirəm ki, dövlət başçılarının müntəzəm görüşləri nümunəsində olduğu kimi, hökumət rəhbərləri səviyyəsində də belə müntəzəm görüşlərin keçirilməsi faydalı olardı.

***

**Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin dedi:**

-Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

Əvvəlcə, Sizi fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Prezidenti seçkilərində inamlı qələbə münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Bu, Sizin səylərinizlə və rəhbərliyinizlə ölkənizdə əldə olunan bütün nailiyyətlərə Azərbaycan xalqı tərəfindən verilən yüksək qiymətdir. Əlbəttə, fürsətdən istifadə edərək, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin ən səmimi və xoş arzularını çatdırmaq istəyirəm.

Biz Azərbaycan Hökumətinin hörmətli başçısı Əli Hidayət oğlu Əsədovla daim təmasdayıq və müntəzəm görüşlər keçiririk. Elə bu yaxınlarda – dekabrda Moskvada Müstəqil Dövlətlər Birliyinin forumunda görüşmüşük, ondan əvvəl isə Soçidə görüş olub. Mənə elə gəlir ki, Azərbaycana səfərim bu yaxınlarda olub. Sizi əmin etmək istəyirəm ki, dövlətlərimizin rəhbərləri arasında qəbul olunan qərarların hamısı daimi nəzarətdədir, hökumətlərimiz tərəfindən icra olunur.

Dünən geniş ikitərəfli gündəliyi müzakirə etdik. Siz bir neçə istiqaməti xatırlatdınız, sənaye sahəsində daha çox layihələr var. Biz, həmçinin nəqliyyat maşınqayırması sahəsində birgə layihələr barəsində düşünürük. Eyni zamanda, qarşılıqlı iri texnoloji, innovativ layihələr üzrə perspektivli istiqamətlər də var. Kənd təsərrüfatı sahəsi üzrə də işləyirik. Siz tamamlama haqqında danışdınız. Həmçinin əczaçılıq üzrə bir sıra məsələlərimiz mövcuddur. Dünən bu sahədə işlərin gücləndirilməsinə dair razılıq əldə etdik. Belə desək, bu gün bizim qarşılıqlı layihələrimizin bütün palitrası nəzarətimizdədir. Qarşılıqlı iqtisadi-ticari dövriyyə rəqəmləri də bunu göstərir. Siz 17 faizlik artım barədə danışdınız. Bu, belədir.

Həmçinin demək istəyirəm ki, bizim keçid məntəqələrimizdə daşıma gücləri 5 dəfə artıb. Bu da bizim Nəqliyyat Nazirliyinin Azərbaycandan olan hörmətli həmkarları ilə birgə böyük sistemli işidir. Biz, həmçinin burada logistika üzrə bütün müvafiq layihələri davam etdiririk. Siz Şimal–Cənub dəhlizini qeyd etdiniz. Həqiqətən 30 milyon ton ciddi həcmdir və əlbəttə ki, məntəqələrdə dar yerlərin qalmaması üçün çoxlu iş görülməlidir.

Həmçinin demək istəyirəm ki, biz atanız hörmətli Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş anım tədbirini böyük ehtiramla keçirdik. Rusiyada onu xatırlayırlar, xatirəsini əziz tuturlar.

Mədəni mübadilə. Bu sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələlər üzrə çoxlu layihələr və ideyalar var. Bu gün Rus Dram Teatrında oldum, orada mədəniyyət sahəsində qarşılıqlı fəaliyyətdən bəhs etdilər. Biz əlaqələrimizin, o cümlədən Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üzrə razılıq əldə etdik. Çoxlu sayda tədbirlərin keçirilməsi üzrə Yol xəritəsi üzərində işləyirik. Əlbəttə, Azərbaycanın hörmətli mədəniyyət və incəsənət xadimlərini Rusiyada, Moskvada görməyə şad olacağıq.

Sizə və həmkarlarıma Rusiya nümayəndə heyətinə göstərilən səmimi, ənənəvi mehriban qəbula görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

***

Dövlətimizin başçısı Rusiya Prezidentinin səmimi və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş etdi.

***AZƏRTAC***

# Milli Məclisdə görüşlər

**Martın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullahı qəbul edib. Qonağı Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edən spiker onun UNICEF-in Azərbaycandakı nümayəndəsi kimi fəaliyyəti, bu təşkilatla ölkəmiz arasında əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.**



Qeyd olunub ki, Azərbaycan BMT-yə üzv olduqdan sonra təşkilatın müxtəlif qurumları ilə fəal əməkdaşlıq əlaqələri qurub. UNICEF ilə ölkəmiz arasında əməkdaşlıq da Azərbaycanın müstəqilliyinin ilk günlərindən başlayıb. Ötən il bu təşkilatın respublikamızdakı fəaliyyətinin 30 illiyi qeyd olunub. Hazırda bu qurumla Azərbaycanın müxtəlif dövlət təşkilatları, o cümlədən, Milli Məclis arasında yaxşı əməkdaşlıq əlaqələri mövcuddur.

S.Qafarova Milli Məclisin qadın, ailə və uşaq məsələləri üzrə qanunvericilik sahəsində fəaliyyəti haqqında da məlumat verib. Deyib ki, Milli Məclisdə uşaqlarla bağlı 35 qanun qəbul edilib, 100-dən çox qanuna əlavə və dəyişikliklər olunub. Sədr xatırladıb ki, bir neçə gün əvvəl Azərbaycan parlamenti "Məişət zorakılığı haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun qəbul edib.

Görüşdə, həmçinin Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtması barədə də məlumat verilib. Bununla yanaşı, Azərbaycan parlamentinin UNICEF ilə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib və bir sıra tədbirlərin birlikdə həyata keçirildiyi bildirilib.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah ölkəmizi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a evsahibliyi etməsi üçün seçilməsi münasibətilə təbrik edib. Qonaq bildirib ki, bu qərar Azərbaycanın sözügedən sahədə əldə etdiyi nailiyyətlərin yüksək səviyyədə tanınması deməkdir.

O, Azərbaycanda uşaq hüquqlarının qorunması istiqamətində mühüm nailiyyətlər əldə olunduğunu xatırladıb. Bunlar Davamlı İnkişaf Məqsədlərinə də uyğundur.

***

Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanı qəbul edib. Azərbaycan və Latviyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan spiker ikitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu, qarşılıqlı təmasların, ali və yüksək səviyyəli səfərlərin ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirib.

Görüşdə bu il Azərbaycan və Latviya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğu, ötən dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb. Söhbət zamanı parlamentlər arasında əlaqələrin daha da inkişafı ilə bağlı perspektivlərə dair də fikir mübadiləsi aparılıb. Sədr bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı ikili standartların mövcud olduğunu diqqətə çatdırıb. O, bu çərçivədə Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin etimadnaməsini ratifikasiya etməməsini tənqid edərək deyib ki, AŞPA bu cür yanlış yanaşmadan imtina etməlidir.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən səfir Edqars Skuya ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını söyləyib. Diplomat ölkəmizi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a evsahibliyi etməsi üçün seçilməsi münasibətilə təbrik edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zəmin üzərində formalaşmışdır.

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları, eyni zamanda, güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər. Mədəni tərəqqi yolunda əzmlə çalışmış maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları kimi onların hazırkı yüksək ictimai nüfuzu və səhiyyə, təhsil, mədəniyyət, elm sahələrindəki mühüm nailiyyətləri ölkəmizin hərtərəfli inkişafını səciyyələndirən amillərdəndir.

Biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik. İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq qazandıran dolğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 mart 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə şəxsən öz adımdan və Tunis xalqı adından ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

Bu fürsətdən istifadə edərək, xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı qardaşlıq münasibətlərini möhkəmləndirmək və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün Sizinlə birgə işləməyə sadiq olduğumuzu bir daha bildirirəm.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Timor-Leste Demokratik Respublikası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi Sizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Bu qələbə təkcə Sizin prezidentlik səlahiyyətinizin davamı deyil, həm də Azərbaycanın gələcəyi naminə Zati-alinizin liderliyinə və strategiyasına göstərilən etimadın təzahürüdür. Sizin dövlətə xidmətdə əldə etdiyiniz nailiyyətlər və fədakarlığınız ölkənizin inkişafına və rifahına olan sadiqliyinizin təsdiqidir.

Ötən ilin mart ayında Zati-alinizlə X Qlobal Bakı Forumunda iştirakım çərçivəsində keçirilən tarixi görüşü böyük məmnunluq hissi ilə xatırlayıram. Bu görüş xalqlarımız arasında qardaşlıq, dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə təkan verib.

Əminəm ki, prezidentliyinizin yeni dönəmində biz Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) dəstəyi ilə böyük potensiala malik mühüm sahələrdə, xüsusilə də təbii sərvətlərin istismarında, infrastruktur, gübrə istehsalı və təhsil sahələrində yeni investisiyalar, layihələr və tərəfdaşlıqlar həyata keçirə biləcəyik.

Biz yalnız Qoşulmama Hərəkatı çərçivəsində deyil, həm də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) və Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) inteqrasiya səviyyəsində Timor-Leste ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qarşılıqlı maraqlarımız naminə möhkəmləndirilməsinə, əməkdaşlıq üçün yeni imkanların nəzərdən keçirilməsinə sadiqliyimizi bir daha vurğulayırıq.

Qoy Zati-alinizin yeni mandatı Azərbaycan xalqına daha böyük nailiyyətlər, davamlı inkişaf və firavanlıq gətirsin! Bu ilin sonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi etməsi münasibətilə Azərbaycanı ürəkdən təbrik edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uğurlar və firavanlıq arzulayıram. Bir daha Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Jose Ramos HORTA,***
***Timor-Leste Demokratik Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Rəhbərliyinizlə işğaldan azad edilmiş torpaqlar da daxil olmaqla Azərbaycanın bütün ərazisində fevralın 7-də əmin-amanlıq şəraitində keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm.

Zati-alinizin və cənab Prezidentimizin rəhbərliyi ilə ölkələrimiz arasında "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edən bənzərsiz dostluq və qardaşlıq münasibətləri regionumuzda sülhün və sabitliyin ən böyük təminatıdır.

Fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və xoşbəxtlik arzularımı çatdırır, dərin ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

# Rusiya Hökuməti sədrinin Azərbaycana səfəri başa çatıb



**Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin Azərbaycan Respublikasına səfəri martın 6-da başa çatıb.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Hökumətinin sədrini Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Elnur Məmmədov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov və digər rəsmi şəxslər yola saldılar.

# Sülh qarşılıqlı etimada söykənmirsə...

## İrəvan Bakının təklifinə praqmatik yanaşmasa vəziyyət dəyişməyəcək

**Azərbaycan–Ermənistan arasında sülh danışıqlarının müsbət sonluğa çatacağı məsələsinin qarşılıqlı etimadın möhkəmlənməsindən birbaşa asılı olduğu şübhəsizdir. Bu zaman sülh prosesini əngəlləyən maneələri aradan qaldırmağın mümkün yollarını aramaq zərurəti ortaya çıxır. Bakı ilə ortaq məxrəcə gəlməkdən ötrü siyasi iradədən başqa İrəvandan daha nələr tələb olunur? Tanınmış siyasi analitik Orxan Amaşovla söhbətimiz bu və digər mövzular ətrafında oldu.**



***– Orxan bəy, Azərbaycan–Ermənistan danışıqlarında qarşılıqlı etimadın yaranmasına əngəl olan əsas səbəb nədir? Bunun üçün daha hansı addımlar atılmalıdır?***

– Bakı ilə İrəvan arasındakı ikitərəfli münasibətlərdə məhz bu elementin çatışmazlığı əvvəlki danışıqlarda kənar aktorların üstün roluna səbəb olurdu. Misal üçün, artıq mövcud olmayan, nüfuzdan düşmüş, fiaskoya uğramış ATƏT-in Minsk qrupunun fəaliyyəti kimi. 2020-ci ilin noyabrından sonra həmsədrlər keçmişdə qaldı. Geriyə baxdıqda tamamilə aydın görünür ki, Aİ Şurasının sədri Şarl Mişelin şəxsi təşəbbüsü kimi bir neçə hal istisna olmaqla, hazırda ölüm ayağında olan "Brüssel prosesi" heç də həll yolu deyil, problemin bir hissəsi idi.

Fevralın 22-də Ankarada idim. Burada ABŞ-da yaşayan erməni əsilli tarixçi və diplomat Jirayr Liparityan ilə bir yerdə Avrasiya Araşdırmaları Mərkəzi (AVİM) və Konrad Adenauer adına Fondun təşkil etdiyi "Mərkəzi Asiya və Cənubi Qafqazda Avropa İttifaqı –Türkiyə əməkdaşlığı" konfransında iştirak edirdik. Mən qarşılıqlı əlaqə siyasəti haqqında məruzə ilə çıxış etdim. Çıxışımın əsas mövzusu "regional məsuliyyətin" vacibliyi, Fransa kimi xarici oyunçuların sülh prosesində kəskin şəkildə zərərli rolu və Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasının ikitərəfli xarakter daşımasının önəmi idi.

Məsələ ondadır ki, hazırda Bakı ilə İrəvan arasında qarşılıqlı etimadın tədricən formalaşmasına nə mane olur və onun yaradılması və möhkəmləndirilməsi üçün hansı addımlar atıla bilər? Son günlər bununla bağlı qarışıq siqnallar eşidirik. Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanın fevralın 28–29-da Berlində keçirilən ikigünlük görüşü mühüm hadisəyə çevrildi. Hərçənd həmin görüşdə nəyin əldə olunduğu barədə məlumatımız azdır, hər iki tərəfin yaydığı press-relizlər isə onların "sonradan razılaşacaqları" barədə razılığa gəldikləri təəssüratını yaradır. Hər halda, nazirlərin ikigünlük görüşünün faydasız olmadığını güman edirik.

***– Həmin günlərdə Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyanın istefa verməsini təsadüf saymaq olarmı?***

– Əvvəlcə bir faktı qeyd edim ki, görüş xətrinə görüşmək effektli üsul deyil. Amma bu da bir həqiqətdir ki, uzun müddətdir xarici işlər nazirləri arasında təkbətək görüşlərin olmaması heç də yaxşı əlamət deyildi. Bundan əlavə, Berlin danışıqları zamanı Tbilisidə çalışan britaniyalı jurnalist Onik Ceyms Krikoryanın "spoiler" adlandırdığı Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan istefa verdi. Bu istefanın Berlində aparılan danışıqlarla əlaqəsinin olub-olmadığını ancaq təxmin edə bilərik. Əgər nəticə əldə olunmasaydı, erməni tərəfi bunu rəsmən təsdiq etməzdi. Bu da kifayət qədər ağlabatandır. Fəqət Edmon Marukyanın məsuliyyətsiz bəyanatlarının, Azərbaycanın ərazi bütövlüyünə kölgə salan şərhlərinin, eləcə də son vaxtlar Xocalı soyqırımı ilə bağlı separatçı paylaşımının dialoqa mənfi təsir göstərdiyi danılmazdır. İndi Ermənistan Xarici İşlər Nazirliyinin təmizlənməyə ehtiyacı var. Yalnız ümid etmək olar ki, tezliklə yeni istefalar və ya Marukyan kimi personajların siyasi səhnədən uzaqlaşdırılması ilə bağlı xəbərlər olacaq.

***– Bu günlərdə Antalyada Diplomatik Forumunun panel müzakirələrində Azərbaycan və Ermənistan təmsilçilərinin qarşılıqlı kəskin çıxışları oldu...***

– Antalya Diplomatik Forumunda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin, Ermənistanın Türkiyə ilə münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi Ruben Rubinyanın iştirak etdiyi panel müzakirəsi yaddaqalan idi. Türkiyənin Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi, səfir Sərdar Kılıç və Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın çıxışlarında isə bölgədə qarşılıqlı etimadı əngəlləyən, bütövlükdə, sülh prosesini sarsıdan bir sıra maneələr ətrafında ciddi fikir mübadiləsi aparıldı. Bu kontekstdə əsas məsələ Ermənistanın konstitusiyasında və bir sıra qanunvericilik aktlarında Türkiyəyə və Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəaların olmasıdır. Hikmət Hacıyev bu məsələni qaldırdı və dedi ki, İrəvan 2020–2023-cü illərdə Azərbaycanın ərazi bütövlüyünü pozaraq Qarabağda boz zonanın tikintisini davam etdirib. Ermənistanın Beynəlxalq Məhkəmədəki bu fəaliyyəti ilə bağlı təqdim etdiyi bəzi arqumentlərdən belə anlaşılır ki, İrəvan Bakının Qarabağ üzərində suverenliyinə məhəl qoymamaqda davam edir. Ruben Rubinyanın Hikmət Hacıyevin ilkin tezisinə cavabı belə oldu ki, sülh müqaviləsinin layihəsinin mətnində artıq razılaşdırılmış bənd olduğundan "heç bir tərəf müqavilədən irəli gələn öhdəlikləri ləğv etmək üçün daxili qanunvericiliyə istinad etməməlidir". Guya, belə bir addımın atılmasına ehtiyac yoxdur və Ermənistanın konstitusiya çərçivəsi bu dövlətin daxili məsələsidir.



***– Yəni, erməni tərəfi sülhdən yayınmaq üçün növbəti bəhanəsini gündəliyə salmağa çalışır və bunu beynəlxalq forumda söyləməkdən belə çəkinmir.***

– Elədir. Birincisi, Hikmət Hacıyevin qeyd etdiyi kimi, bir dövlətin konstitusiyasında digər dövlətin ərazi bütövlüyünə qəsd edən müddəalar olarsa, bu məsələ artıq ikinci dövləti də narahat edir. "Miatsum" haqqında müddəanın qanunvericilikdə olmasını nəzərə alanda Ermənistanın Qarabağın özünə birləşdirilməsi kimi utopik ideya sülh üçün ciddi maneə deməkdir. Əslində, bu, Ermənistanın daxili işlərinə qarışmaq məsələsi deyil.

İkincisi, tərəflər qarşılıqlı etimadı gücləndirməlidir. Konstitusiyaya dəyişiklik prosesi kifayət qədər uzun olsa da, İrəvan ən azı bəzi qanunvericilik aktlarını, məsələn, 1992-ci ildə parlamentin Bəyannaməsindəki irticaçı müddəaları ləğv edə bilər. Yoxsa belə çıxır ki, Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan beynəlxalq və ya daxili aktlarla heç vaxt razılaşmayacaq. Sülh prosesi ilə bağlı niyyətlərinin səmimiliyini nümayiş etdirməkdən ötrü rəsmi İrəvan bəzi tədbirləri görməli idi, amma görmədi. Əksinə, bu yaxınlarda pis hava şəraiti səbəbindən təsadüfən sərhədi keçən Azərbaycan əsgərinin Ermənistan tərəfindən saxlanılması, onun həbsi, cəfəng maddələrlə ittiham olunması, bir növ, lakmus testi sayılmalıdır. Çünki tərəflər arasında müvafiq şəraitdə yolu azmış əsgəri heç bir şərt olmadan azad etməyi nəzərdə tutan razılaşma var. Düzdür, bu məsələ Bakının israrlı tələbi ilə öz həllini tapdı.

***– Tərəflər arasında qarşılıqlı etimadın yaranması məsələsinə qayıdaq. Avropa İttifaqının Ermənistandakı mülki missiyasının bu istiqamətdə fəaliyyətini, daha doğrusu, fəaliyyətsizliyini necə qiymətləndirərdiniz?***

– Avropa İttifaqının Ermənistanda yerləşən missiyasının bu yaxınlarda Ermənistan–Azərbaycan şərti sərhədindəki Arazdəyən kəndindəki metallurgiya zavoduna səfəri Bakıda mənfi reaksiya doğurub. Rəsmi Bakı həmin zavodun sərhəddə inşa edilməsinin Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının şərtlərini pozduğunu və bunun Azərbaycanın və bütün regionun ekologiyasını təhlükə altına alacağını nəzərə çatdıraraq, zavodla bağlı narahatlığını bildirib. Yadınızdadırsa, İrəvan əvvəlcə bu zavodun başqa yerə köçürüləcəyi barədə açıqlama vermişdi. Amma buna baxmayaraq, Aİ bu yaxınlarda əraziyə gəlib və zavodun üzərində özünün bayrağını qaldırıb. Burada ortaya maraqlı sual çıxır: Brüssel Bakı ilə İrəvan arasında yaranan qarşılıqlı etimadı təhlükəyə atmamaq üçün kifayət qədər ehtiyatlı davranırmı? Başqa bir məsələ odur ki, biz tez-tez Qərb siyasətçilərinin, ekspertlərin və diplomatların dilindən eşidirik ki, indiki mərhələdə Azərbaycan hələ də Ermənistanın baş naziri Nikol Paşinyanın fəaliyyətini asanlaşdırmaq ideyasını qəbul etmir. Başqa sözlə, guya, Bakı daim tələb edir və İrəvanı çətin vəziyyətə salır. Birincisi, Bakı ilə İrəvan arasında aparılan danışıqlarda bu günə qədər əldə olunan nəticə ondan ibarətdir ki, proses sırf ikitərəfli dialoq xarakteri alıb. Yəni, Qarabağ adlı keçmiş "problem" artıq sülhə maneə sayıla bilməz. Bu reallıq Bakının İrəvana qanuni və konstruktiv təzyiqi kimi izah edilir. İddia olunur ki, Prezident İlham Əliyev bu təzyiq üsuluna əl atmadan baş nazir Paşinyanın işini asanlaşdırsaydı, biz indiki vəziyyətlə düşməzdik. İkincisi, Bakının gələcək Zəngəzur dəhlizinin Rusiyanın nəzarətində olmasında israr etməsi və Azərbaycanın müharibənin fəsadlarının aradan qaldırılmasında Ermənistana kömək etməməsi ilə bağlı maraqlı suallar eşidirik.

***– Başqa sözlə, qarşı tərəfin iddiaları bəzən sağlam məntiqlə bir araya sığmır...***

– Əvvəla, bu, Ermənistanın özünün razılaşdığı məsələdir və ortalıqda dəyişməz öhdəlik var. İkincisi, Prezident İlham Əliyevin 2023-cü ilin fevralında Laçında və cənub sərhədində ikitərəfli keçid məntəqələrinin yaradılması təklifini İrəvana xatırlatmalıyıq. Həmin təklifdə Ermənistanın Zəngəzur dəhlizinin hər iki girişində özünün sərhəd nəzarət postunu qurması nəzərdə tutulurdu. Bunun ardınca İrəvan Bakının sülh masasına əyləşmək təklifindən imtina etdi və Azərbaycan birtərəfli qaydada öz sərhədini tam nəzarətə götürdü. Əlbəttə, bu, sadəcə ehtimaldır: əgər İrəvan o zaman Azərbaycanla əməkdaşlığa razı olsaydı, Ermənistanın cənubundan keçəcək nəqliyyat dəhlizi bir qədər fərqli olardı.

Şübhəsiz ki, bu müzakirə, Azərbaycan–Ermənistan danışıqlarının əsasını təşkil edir, həm də zamanın sınağından keçmiş nümunəyə çevrilir. Aydın məsələdir ki, Bakı yeni təklif verəndə, İrəvan isə ona gözlənilən müsbət tərəfdən baxmaqdan imtina etdikdə, Azərbaycanın növbəti təklifi daha az səxavətli və daha tələbkar olur. Və bu situasiyanın tezliklə dəyişməsi mümkün deyil.

***Söhbəti qələmə aldı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# 27 Yanvar Tehran terroru və ədalətə inam

## Abdullahian ümid verir, yoxsa...

**Azərbaycan diplomatlarının tezliklə İrana qayıtmalarına dair razılıq var. Razılıq İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Ciddədə keçirilmiş görüşdə əldə olunub. Bu barədə jurnalistlərə məlumatı İslam respublikasının XİN rəhbəri verib.**



H.Abdullahian C.Bayramova görüşündə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşını qətlə yetirən şəxsin məhkəməsinin nəticəsi ilə bağlı müzakirənin aparıldığını vurğulayıb: "Azərbaycanlı həmkarımla görüşdə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşını qətlə yetirən şəxsin məhkəməsinin nəticəsi ilə bağlı müzakirə apardıq. Azərbaycan Respublikasının diplomatik nümayəndə heyətinin İrana göndərilməsi ilə bağlı yaxın vaxtlarda tədbirlər görülməsi ilə əlaqədar razılıq əldə etdik".

Əvvəla, bildirək ki, 2023-cü il yanvarın 27-də törədilmiş terrorla bağlı Azərbaycanın İrandakı səfirliyi həmin il yanvarın 30-dan fəaliyyətini dayandırıb. Hazırda səfirliyin missiyasını Təbrizdəki baş konsulluğumuz icra edir. İranın XİN başçısının açıqlamasına isə iki aspektdən yanaşmaq istərdik. Birincisi, o, "Azərbaycanın İrandakı səfirliyinin əməkdaşını qətlə yetirən şəxs" ritorikasına üstünlük verir. Əlbəttə, məsələ yalnız səfirliyin bir əməkdaşının – təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun həyatını itirməsində deyil. Ümumi yanaşma belədir ki, ölkəmizin Tehrandakı ali diplomatik missiyasına hücum olub. Bütün dünya bu hücumu terror adlandırıb. BMT-nin Baş katibi Antoniu Quterreş, Avropa İttifaqı, NATO, GUAM, 60-dan çox ölkənin dövlət başçısı, xarici işlər nazirləri və səfirləri hadisəni məhz bu şəkildə pisləyib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev də qanlı olayı sərt şəkildə qınamışdı. Ölkəmizin Xarici işlər nazirinin müavini Xələf Xələfov terror hücumu ilə əlaqədar Azərbaycan tərəfində "lazımi qədər tutarlı sübutlar"ın olduğunu qeyd etmişdi. Bir sözlə, ölkəmiz də məsuliyyətin İranda olduğunu vurğulamış və hücumu "terror aktı" kimi qiymətləndirmişdi.

Əlbəttə, biz indilik "terror" məntiqini qabartmaya da bilərdik. Azərbaycan–İran münasibətlərindəki gərginliyin əbədi qalmasının lüzumsuzluğu barədə düşünməyimiz lazımdır. Nəhayət, İran yaxın qonşumuzdur, hər iki ölkə xalqlarını bir-birinə bağlayan müştərək tarix var. Gərginliklər ən azı həmin tarixə ehtiram nümunəsi olaraq aradan qaldırılmalıdır. Bütün bunlar öz yerində. Amma İran tərəfinin bir il iki ay əvvəl yaşanmış qanlı olayın təfərrüatlarına həssas yanaşması da şərtdir.

Bəli, biz onu da anlayışla qarşılayırıq ki, cənab H.Abdullahian sözügedən hadisə ilə bağlı İranın adının yüksək tonla çəkilməsini istəmir. Ancaq terror fərqli məsələdir. Terrorçunun nə vətəni, nə də milliyəti olur. Belə bir akt dünyanın harasında baş verməsindən asılı olmayaraq, ona həssas yanaşılması, obyektiv hüquqi qiymət verilməsi şərtdir. İnanaq ki, İran XİN başçısının fikrinin məğzində bu həssaslığın nəzərə alınması var. Onu da nəzərə alaq ki, əlində avtomat silah səfirliyimizə daxil olan şəxsin zərərsizləşdirilməyəcəyi təqdirdə daha nələri edəcəyini ağla gətirmək qorxuncdur.

İranın XİN rəhbəri H.Abdullahianın açıqlamasındakı ikinci motivə diqqət yetirək. O, "Azərbaycan diplomatlarının tezliklə İrana qayıtmaları" fikrini işlədir. Məsələ yalnız qayıtmaqdadırmı? Başlıca məqam Azərbaycanın İrandakı səfirliyinin fəaliyyətini bərpa etməsidir. Yəni, fikrimizcə, məsələnin qoyuluşu sırf bu tərzdə olmalıdır. Nəzərə alaq ki, hazırda Tehrandakı ali diplomatik missiyamız fəaliyyət göstərmir. Diplomatlarımız isə yumşaq ifadə etsək, küsüb getməyiblər. Ortada haqqında söz açdığımız qanlı olay var. Bu olaya vaxtında müvafiq hüquqi qiymət verilsə, yaxud belə bir niyyətin mövcudluğu nəzərə çarpsaydı idi, səfirliyimizin əməkdaşları İranı tərk etməzdilər, belə bir ehtiyac yaranmazdı. Yəni, cənab H.Abdullahian mövcud xüsusda daha korrekt ifadə işlədə bilərdi.

***

Azərbaycanın İrandakı səfirliyinə hücum etmiş şəxsin məhkəməsinə gəlincə, məlumdur ki, ölkəmizin Xarici İşlər Nazirliyi 27 Yanvar terrorunun bir illiyi ilə bağlı bəyanat yaymışdı. Bəyanatın ən vacib cəhəti onun məlumat yüklü olması idi. Bəyanatda bildirilirdi: "İran tərəfi aparılan istintaq tədbirləri barədə mütəmadi əsasda Azərbaycan tərəfini məlumatlandırmış, uzun müddət aparılmış prosesdən sonra terror aktını törədən şəxsin məhkəməsinin ilk iclasını 27 yanvar 2024-cü il tarixinə təyin etmişdir".

Ümumən, Azərbaycan XİN-in bəyanatı göstərmişdi ki, söhbət adi bir olaydan, yaxud insidentdən getmir. Çünki sözügedən terror aktının Azərbaycan – İran münasibətlərində müstəqillik dövründən etibarən ən böyük miqyaslı soyuqlaşma üçün, bir növ, katalizator rolunu oynadığı məlumdur. Deməli, ona düzgün hüquqi qiymətin verilməsi Azərbaycan ictimaiyyətinin diqqət mərkəzindədir.

Azərbaycan XİN-in bəyanatında daha bir vacib məqam da var idi. Sənəddə bildirilmişdi ki, səfirliyə qarşı törədilmiş terror aktı fonunda akkreditasiya ölkəsi kimi İran tərəfi "Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası"ndan irəli gələrək, səfirliyin binasının hər cür hücumlardan qorunması və onun əməkdaşlarının təhlükəsizliyinin təminatına dair öhdəliyini yerinə yetirməmişdir.

Ölkəmizin XİN-in bəyanatında o da vurğulanmışdı ki, ötən müddətdə terror hücumu ilə bağlı Azərbaycanla İran arasında yaranmış vəziyyətin aradan qaldırılması, sözügedən terror aktının təşkili və törədilməsində əli olanların ən ağır şəkildə cəzalandırılması, səfirliyin təhlükəsizliyinə tam təminatın verilməsi istiqamətində iki ölkənin rəsmi şəxsləri və aidiyyəti qurumları arasında mütəmadi təmaslar davam etdirilmiş, Azərbaycan tərəfinin gözləntiləri qarşı tərəfə çatdırılmışdır.

***

Qeyd edək ki, Tehrandakı ali diplomatik missiyamıza hücum edən şəxs İran vətəndaşı Yasin Hüseynzadədir. O, "Kalaşnikov" markalı avtomat silahla heç bir maneə görmədən mühafizə postunu yararaq səfirliyimizə daxil olmuş və atəş açmışdı. Nəticədə səfirliyimizin mühafizə xidmətinin rəhbəri baş leytenant Orxan Əsgərov həlak olmuşdu. Hücumun dəf edilməsi zamanı iki mühafizəçi xəsarət almışdı. Onlardan birinin – terrorçunu zərərsizləşdirməyə nail olan Vasif Tağıyevin çiyninə və çənəsinə güllə dəymişdi.

Y.Hüseynzadə İran hüquq-mühafizə orqanları tərəfindən saxlanılmış və istintaqa cəlb olunmuşdu. Hadisə ilə bağlı Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətində də Cinayət Məcəlləsinin 12.2, 120.2.1, 12.2, 120.2.4, 12.2, 120.2.11, 12.2, 29, 120.2.7, 12.3, 214.2.1, 12.3, 214.2.3 və 12.2, 228.2.1-ci maddələri ilə cinayət işi başladılmışdı.

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun jurnalistlərə iki ay əvvəlki açıqlamasındakı bir məqamın da üzərində dayanaq. Nazir konkret şəkildə bildirmişdi ki, ölkəmizin İrandakı səfirliyinin fəaliyyətinin bərpası üçün iki əsas məqama diqqət yetiriləcək. Birincisi, terror aktı ilə bağlı istintaqın başa çatması və qərarın qəbul edilməsi. İkincisi, səfirliyimizin təhlükəsizliyinə tam şəkildə təminat verilməsi: "Səfirliyimizin əməkdaşlarının və onların ailə üzvlərinin təhlükəsizliyi tam təmin edilmədiyi üçün onlar Azərbaycana gətirilmişdi".

Sonda qeyd edək ki, Azərbaycanın İrandakı səfirliyində terror aktı törədən şəxs, yəni Y.Hüseynzadə haqqında ölüm hökmü çıxarılıb. Bunu ötən ay Azərbayacanın baş prokuroru Kamran Əliyev "Real TV"-yə müsahibəsində demişdi. K.Əliyev onu da bildirmişdi ki, təqsirləndirilən Y.Hüseynzadəyə üç epizod üzrə ittiham irəli sürülüb. İran qanunvericiliyinə əsasən, barəsində hökm çıxarılan şəxs 20 gün ərzində Ali Məhkəməyə şikayət verə bilər. Hökm icra olunmadığına görə, çox güman, Y.Hüseynzadə yuxarı məhkəmə instansiyasına müraciət hüququndan istifadə edib. İranın Ali Məhkəmənin qərarı nə olacaq, bunu zaman göstərəcək. Həmin qərarın elan edilməsinədək Azərbaycanın İrandakı səfirliyinin fəaliyyət göstərib-göstərməyəcəyini də həmçinin.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Rüşvətxor, casus və erməniprəst senator

(əvvəli 1-ci səhifədə)

Misirlə bağlı sövdələşmə Menendesin Misir rəsmiləri ilə görüşləri və şam yeməyi zamanı əldə edilib. İttiham aktına görə, bu hərəkətlərinin müqabilində R.Menendes və həyat yoldaşı nağd pul, qızıl, ipoteka ödənişləri, lüks avtomobil və digər qiymətli əşyalar alıblar. Menendesin evində axtarışlar zamanı dəyəri 100 min dollardan çox qızıl külçələr və zərflərə qoyularaq paltarlarda, şkaflarda və seyfdə gizlədilmiş 480 min dollar nağd pul aşkarlanmışdı. Prokurorluq hesab edir ki, cütlük 2018-ci ildən qanunsuz fəaliyyətlə məşğul olub. Menendes və Arslanyan indiyədək təqsirlərini etiraf etməyiblər.

Nyu-Yorkun Cənub Dairəsi Məhkəməsinin yenilənmiş rəyində senatora qarşı 18 ittiham var. Yeni ittihamlar irəli sürülməzdən bir müddət əvvəl iş üzrə təqsirləndirilən şəxslərdən biri, Nyu-Cersidən olan biznesmen Xose Uribe təqsirini etiraf edib və istintaqla əməkdaşlığa razılaşıb. X.Uribe ittiham tərəfi ilə razılaşmanın şərtlərinə əsasən, ABŞ-ın erməniprəst qanunvericisi və onun həyat yoldaşının korrupsiya əməli ilə bağlı cinayət işi üzrə ifadə verəcək. "Amerikanın səsi" radiosu xəbər verib ki, biznesmen ittiham tərəfi ilə sövdələşməyə girərək, senator Menendesi pulla ələ almaq cəhdi üzrə özünü təqsirli hesab edib.

Nyu-Cersi ştatının Klifton şəhərindən olan X.Uribe Manhetten Federal Məhkəməsində çıxış edərək, ona qarşı irəli sürülən ittihamın 7 bəndi, o cümlədən, 2018–2023-cü illərdə rüşvət verilməsi, elektron rabitə vasitələrindən istifadə etməklə dələduzluq əməli törədilməsi, məhkəməyə əngəl yaradılması və vergidən yayınma maddələri üzrə öz təqsirini etiraf edib. İttiham tərəfi iddia edir ki, biznesmen senator Menendesin həyat yoldaşına "Mercedes-Benz" avtomobili bağışlayıb. Təqsirin etirafı ilə bağlı razılaşmaya əsasən, 95 il müddətinə azadlıqdan məhrum edilə biləcək Uribe digər müttəhimlərə qarşı ifadə verərsə və istintaqla əməkdaşlığa gedərsə, öz cəzasını yüngülləşdirə bilər. Biznesmen də məhz bu variantı seçib. O, həmçinin cinayətləri törədərkən əldə etdiyi 246 min dollar məbləğində vəsaiti dövlətə ödəməyə razı olub.

Ötən ilin payızında məlum olmuşdu ki, Uribe senator Menendes və onun arvadının korrupsiya əməlləri üzrə cinayət işində ittiham edilən üç biznesmendən biridir. Hakimiyyət orqanları iddia edir ki, cütlük iş adamlarına kömək və qanunvericinin



xarici məsələlərdə təsirini vəd edərək, onlardan nağd pul, qızıl külçələr və bahalı avtomobillər şəklində rüşvət qəbul edib.

"NBC Nyus" isə yazır ki, yeni ittihamın əks olunduğu sənəddə 2022-ci ildə Nadin Arslanyan və Xose Uribe arasında görüşdən bəhs olunur. Həmin görüş məhkəmə ondan alınan və istintaqın rüşvət hesab etdiyi vəsaitləri izah etməyi tələb etdikdən dərhal sonra keçirilib. Məhkəmə materiallarına görə, görüş zamanı senatorun arvadı iş adamından məhkəmədə bu ödənişləri necə əsaslandıra biləcəklərini soruşub. Biznesmen isə pulların borc kimi alındığını söyləməyi tapşırıb. "Bu, yaxşı səslənir", – deyə xanım Menendes cavab verib.

***

Qeyd etdiyimiz kimi, R.Menendes ABŞ-dakı erməni lobbisinin əsas dayaqlarındandır. Həmin dəstəyə Frenk Pallone, Adam Şiff, Ceki Sper, Qus Bilirakis, Anna Eşu, David Valadao, Ted Lyu, Marko Rubio, Harri Piters, Elizabet Uorren, Şeldon Vaythaus və Piter Uelç də daxildir. Bu senatorlar vaxtaşırı Azərbaycana qarşı hər cür hədyanlarla çıxış edirlər. Ancaq Menendesin adı anti-Azərbaycan fəaliyyətlərdə "qırmızı xətlə" keçir. Məsələ ondadır ki, demokrat senator vəzifəsinə görə, onların hamısından böyük olub. O, 2023-cü il sentyabrın sonlarınadək, yəni ABŞ hüquq-mühafizə orqanları tərəfindən irəli sürülən ittihamlara qədər Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsini icra edib. Yalnız ittihamların irəli sürülməsindən sonra müvəqqəti istefa verib.

R.Menendes 1954-cü il yanvarın 1-də dünyaya gəlib. Onun valideynləri 1953-cü ildə Kubadan ABŞ-a mühacirət ediblər. Sent Peters Kollecini (1976) və Rutgers Universitetinin hüquq fakültəsini (1979) bitirib. 1986-1992-ci illərdə Nyu-Cersi ştatının Union-Siti şəhərinin meri olub. 1987-ci ildə Nyu-Cersi Nümayəndələr Palatasına seçilib. 1991-ci ildə Nyu-Cersi Senatına, növbəti il isə ABŞ Nümayəndələr Palatasına seçilib.

2006-cı ilin yanvarında Menendes Nyu-Cersi ştatının qubernatoru seçilmiş senator Con Korzaynın istefasından sonra ABŞ Senatına təyin edilib. 2006-cı ilin noyabrında yenidən bu vəzifəyə seçilib. 2013-cü il fevralın 1-dən 2015-ci il yanvarın 3-dək Senatın Xarici Əlaqələr Komitəsinin sədri olub.

Menendes, qeyd etdiyimiz kimi, erməni lobbisinin maraqlarından çıxış edib və 1995-ci ildən ABŞ Konqresinin erməni məsələləri komissiyanın üzvü olub. O, ABŞ-ın Azərbaycana helikopter satışına icazə verən qətnaməsini, eləcə də Metyu Brayzanın Birləşmiş Ştatların Azərbaycandakı səfiri vəzifəsinə təyin olunmasını əngəlləyib. Bundan əlavə, o, ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsinin və Türkiyəyə F-16 qırıcılarının, habelə onun komponentlərinin satışının qarşısını alıb.

***

Hələ 2012-ci ildə isə R.Menendes nalayiq davranışda, o cümlədən Dominikan Respublikasında yetkinlik yaşına çatmayan iki qızla intim münasibətdə olmaqda ittiham edilmişdi. Lakin dəlil çatışmazlığına görə senatora qarşı rəsmi ittiham irəli sürülməmişdi. ABŞ Konqresində anti-Azərbaycan və anti-Türkiyə addımları ilə xüsusi seçilən senator 2015-ci ildə də cinayət məsuliyyətinə cəlb edilmişdi. Menendes o vaxt korrupsiya və fırıldaqçılığın bir neçə növü də daxil olmaqla, ümumilikdə, 14 maddə üzrə, o cümlədən, "dövlət vəzifəsində olan zaman qulluq mövqeyinin şəxsi maraqlarla bir araya sığmaması" faktının gizlədilməsi maddəsi üzrə ittiham olunurdu. Lakin 2018-ci ilin noyabrında onu mühakimə etmək üçün andlılar məhkəməsinin kifayət qədər üzvü səs verməmişdi. Bundan sonra ittihamlar ləğv edilmişdi. 2023-cü ilin sentyabrında isə qeyd etdiyimiz kimi, Menedesə məxfi məlumatların Misir hakimiyyətinə ötürülməsi və rüşvət müqabilində onların maraqlarına uyğun fəaliyyət göstərməsi ittihamı irəli sürülüb.

Menendesin hazırda ABŞ hüquq-mühafizə orqanları tərəfindən rüşvətdə ittiham olunması onun ermənilərdən də rüşvət aldığını söyləməyə ciddi əsaslar verir. Güman etmək olar ki, senator haylara göstərdiyi xidmətlərin qarşılığını artıqlaması ilə alıb. Bundan əlavə, R.Menendes 2022-ci ilin mayında Ermənistanın "Dostluq" ordeninə də layiq görülüb.

R.Menendesin anti-Azərbaycan fəaliyyəti ötən ilin sentyabrında Qarabağdan ermənilərin könüllü köçü ərəfəsində kulminasiya nöqtəsinə çatmışdı. Vaxtilə Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına imkan verməyən, bütövlükdə, iki ölkənin və xalqın yaxınlaşmasının qarşısını almaqla özünün maraqlarını təmin etməyə çalışan şəxslərdən biri də Menendes idi. 2023-cü il sentyabrın 14-də onun təşəbbüsü ilə Senatın Xarici əlaqələr komitəsində "Qarabağdakı böhranın qiymətləndirilməsi" mövzusunda dinləmələr keçirilmişdi.

Ötən ilin avqust ayında isə Menendes Kaliforniyadan olan senator Aleks Padilla ilə birlikdə BMT Təhlükəsizlik Şurasından Azərbaycanı "Qarabağın blokadasını" dərhal aradan qaldırmağa məcbur edən qətnamənin qəbulunu tələb etmişdi.

Ümumiyyətlə, R.Menendes Senat komitəsinin sədri kimi fəaliyyət göstərdiyi illər ərzində Azərbaycana qarşı erməniləri dəstəkləmək üçün Senata dəfələrlə qanun layihəsi təqdim etmiş, Türkiyə ilə hərbi-iqtisadi əməkdaşlığa bağlı qanun layihələrinin qarşısını almağa çalışmışdı. Erməniprəst senator vaxtaşırı ABŞ prezidentlərinin "907-ci düzəliş"i dayandırmasına da etiraz etmişdi. Onun səyləri istənilən nəticəni vermədi və arzusu ürəyində qaldı.

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV, politoloq**

Erməniprəst senator bizim bölgəmizdə sülhə, sabitliyə təhlükəsizliyə hər zaman mane olub. Eyni zamanda, onun çirkli oyunları, rüşvət və korrupsiya faktları da göstərir ki, törətdiyi bütün əməllərə görə cavab verməlidir. Erməni lobbisinin əlində alətə çevrilən Menendes ölkəmizə və Türkiyəyə qarşı radikal mövqeyi ilə seçilirdi. O, xarici siyasətlə, Cənubi Qafqazdakı proseslərə bağlı müzakirələr zamanı hər zaman çox kəskin mövqe ortaya qoyurdu.

Menendeslə bağlı baş verənlər bir ABŞ qanunverici orqanı təmsilçisinin nə dərəcədə çirkaba bulaşmasının da göstəricisidir. Eyni zamanda, lobbi qruplarının qanunverici orqanı nə dərəcədə ələ almasının da təsdiqidir. Menendes isə burada baş roldadır. Yeni ittihamların üzə çıxması göstərir ki, Menendesin qanun pozuntuları nə qədər böyükdür. İstisna etmək olmaz ki, qarşıdakı dövrdə digər məqamlar da üzə çıxacaq.

Bu gün Azərbaycan vaxtilə düşmən tapdağı altında olmuş bütün torpaqlarını azad edib. Qarabağ hazırda böyük tikinti-quruculuq meydanını xatırladır. Bütün şüurlu həyatı Azərbaycanla mübarizəyə həsr olunmuş, bu yaxınlaradək "blokada" və "humanitar fəlakət" barədə aşkar yalanlar yaymağa çalışan menendeslər isə çirkli əməllərinə görə, tezliklə ədalət mühakiməsi qarşısında cavab verməli olacaqlar.

*Səxavət HƏMİD*
*XQ*

# Parisin Cənubi Qafqaz avantürası və Dekotininin "Tanqo" məntiqi

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, məlumdur ki, Fransanın məqsədi kollektiv Qərbin Cənubi Qafqaza yiyələnməsində fəal rol oynamaqdır. Prezident Emmanuel Makronun yarıtmaz siyasəti səbəbindən dünyada nüfuzunu itirmiş ölkə hər vəchlə çalışır ki, daxildəki narazılığı xaricdəki uğurla sığortalasın. Buna Makronun beynəlxalq ictimaiyyətin gözündə reabilitasiya olunmaq istəyi də demək mümkündür. Ona görə Paris İrəvanı alətə çevirir və Cənubi Qafqazda Rusiyaya qarşı üstünlük əldə etmək niyyəti güdür. Əlbəttə, Fransanın özünü Avropa İttifaqının strateji maraq və mənafelərini yerinə yetirən qüvvə kimi göstərdiyi də diqqətdən yayınmır.

***

Dekotini bildirir ki, Ermənistanın ərazi bütövlüyü məsələsindən nigaranlıq keçirən ölkə tək Fransa deyil. Səfir bu baxımdan İranın adını çəkir. Onun sözlərinə görə, son bir neçə ildə Tehran dəfələrlə mövcud istiqamətdəki narahatlığını ifadə edib. "İranla bir çox məsələlərdə fikir ayrılığımız var, lakin bu, yekdil olduğumuz bir məsələdir", – deyən Dekotini, çox güman ki, İslam respublikasına jest etdiyini düşünür. Görəsən, Fransanın və İranın mövqeləri üst-üstə düşürmü və yaxud nə dərəcədə üst-üstə düşür? Axı, ümumən, məsələnin bu tərzdə qoyuluşu yanlışdır.

Qeyd etdiyimiz kimi, Ermənistanın ərazi bütövlüyü və suverenliyi ritorikası manipulyasiyadır. Məqsəd Rusiyanın Cənubi Qafqazla bağlı maraqlarını heçə saymaq, ölkənin regiondakı təsirini minimallaşdırmaqdır. Fransa Qərb dünyasının mövcud xüsusdakı siyasi dəst-xəttini gerçəkləşdirən tərəf qismində çıxış edir. O zaman sual olunur: İran Cənubi Qafqaz platformasında Rusiyaya qarşı çıxmaq istəyərmi? Ümumən, Tehran Cənubi Qafqazda, eləcə də digər bölgələrdə Moskvanın təsir gücünü itirməsindən məmnundurmu? Nəhayət, İran Rusiyadan sonra əzilmək növbəsinin ona çatacağını bilmirmi?

Bəli, Dekotininin Ermənistan və Cənubi Qafqaz platformasında Fransa – İran ortaqlığı axtarması, Makronun siyasi səriştəsizlik kursunun zay düşüncə tərzidir. Ümumən isə "Ermənistanın ərazi bütövlüyü və suverenliyi" məntiqi özlüyündə siyasi klişedir. Hər kəs bu klişenin arxasında öz maraqlarını düşünür.

Digər tərəfdən, axı Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə qəsb etmək istəyən yoxdur. Bu, İrəvanın və onun havadarlarının uydurmasından,



anti-Azərbaycan təbliğatından başqa bir şey deyil. Şübhəsiz, baş havadar Fransanın özüdür. Azərbaycanın narahatlığına gəlincə, səfir Dekotininin sözlərinə görə, Fransanın Ermənistana verdiyi silahlar ikincinin qorunmasına yönəlib və sırf müdafiə xarakteri daşıyır. Ali diplomatik missiya təmsilçisi, həmçinin bildirir ki, Ermənistanın hava məkanını pozmasanız, heç vaxt ölkənin hava hücumundan müdafiəsi sistemi ilə qarşılaşmazsınız. Adam, öz aləmində, diplomatik tonda fikir bildirdiyini düşünür, amma, onun belə ifadə tərzi tərbiyəsizlik və həyasızlıq dolu ittihamdır. Yəni, səfir təxminən "Ermənistanın hava sərhədlərini pozmayın ki, narahatlığınıza əsas yaranmasın", – deyir.

***

Dekotininin digər fikrinə keçid alaq. Səfir Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın Ermənistana qarşı yeni müharibəyə hazırlaşdığına dair fikrinə münasibətini açıqlayır və mövcud xüsusda ölkəsinin gözlənilən yeni müharibənin qarşısının alınmasında hansı rolu oynaya biləcəyindən danışır. Onun ilk cümləsi belədir: "Bakıdan həyəcanlı açıqlamalar gəlir".

Tam aydındır ki, Dekotini İrəvanın qaraqışqırığını ciddi siyasi ritorika halına gətirmək yolu tutur. O, Fransanın Ermənistan və Azərbaycan arasındakı danışıqlarda iştirakına toxunur. Bildirir ki, xüsusən 2022-ci ilin oktyabrında Praqada tərəflər bir-birinin ərazi bütövlüklərinin qarşılıqlı tanınması və sərhəd məsələlərinin Alma-Ata Bəyannaməsi əsasında həllinə dair razılıq əldə ediblər. Deyəsən, səfir bir çox məsələləri unudub. Eləcə də Prezident E.Makronun həmin Praqa görüşündən heç iki həftə keçməmiş Azərbaycanı "işğalçı" adlandırmasını da. Ola bilər, Dekotini Makronun yaramaz sözləri səbəbindən 2022-ci ilin dekabrında Azərbaycan və Ermənistan liderləri arasındakı Brüssel formatının iflasa uğramasını da unudub. Hərçənd, buna inanmaq çox çətindir.

Aydındır ki, səfir Praqa Sammitini ehkamlaşdırır. Ancaq düşünmür ki, həmin sammit zamanı liderlər qarşılıqlı əsasda ərazi bütövlüyünə və suverenliyə sadiqliklərini açıqlasalar da, Ermənistan Qarabağdakı separatçı rejimi saxladı, bölgədən hərbi dəstələrini geri çəkmədi. Görünür, Azərbaycanın 2023-cü ilin sentyabrında keçirdiyi lokal xarakterli antiterror tədbirlərinədək, Qarabağda Ermənistan ordusunun 10 mindən çox silahlısının qaldığını səfirə xatırlatmaq lazımdır. Elə isə Praqa prosesinə riayət edilməsindən söhbət gedə bilərmi? Əlbəttə ki, yox! Sammit, sadəcə olaraq, manipulyasiya idi və İrəvan eyni "kursu" yenə davam etdirir.

***

Nəhayət, görək Dekotini nədən nəticə çıxarmağı vacib sayır? Ümumən, onun "nəticə çıxarmaq" məntiqi nəyə əsaslanır? Səfirin sözlərinə görə, Ermənistan həmişə Azərbaycanla sülhə hazır və maraqlı olduğunu bəyan edib. Ancaq, guya, Bakı sazişləri pozan hərəkət tərzinə malikdir və buna görə sülh müqaviləsinin reallığa çevrilməsi üçün beynəlxalq təminatların zəruriliyi vurğulanır. Bu yerdə Dekotininin yenə bütün diplomatik etiketləri pozduğunu söyləyə bilərik. Əvvəla, onun statusu nəyə, indiki halda iki tərəf arasındakı probleme bu cür açıq formada qiymət verməyə imkan vermir. Yəni, o, səlahiyyət həddini aşır. Nəzərə alsaq ki, bütün hədləri aşmaq hazırkı Fransa dövlətinin fəaliyyət dəst-xəttidir, o zaman təəccüblənmirik. Amma, görəsən, səfir nəyə görə hesab edir ki, Azərbaycan və Ermənistan arasındakı sülh üçün təminatçı Aİ və Fransa olmalıdır? Ona görə ki, onlar aşkar erməniprəst mövqe tuturlar?

Digər tərəfdən, Dekotini, belə demək mümkünsə, Tanqo məntiqinə baş vurur. O deyir ki, iki nəfər rəqs edirsə, ilk növbədə, hər iki tərəf bunun üçün razılığa gəlməlidir, yəni rəqsi (oxu, sülhə gəlməyi – red.) istəməlidirlər.

Fransız səfirin fikrincə, ötən otuz ildən artıq davam etmiş danışıqlar prosesində üçüncü tərəfin dəstəyinin və təminatının zəruriliyi dərk olunub. Görəsən, necə? Nə üçün Dekotini son otuz ili yada salır? Yaxşı olardı ki, o, ötən üç ilin üzərində dayansın. Çünki üçüncü tərəfin vasitəçiliyi ilə otuz ilə yaxın aparılmış danışıqlar Azərbaycan torpaqlarının işğalı reallığını dəyişmədi. Bu reallığı dəyişdirən ölkəmizin gücü oldu.

Onu da deyək ki, Aİ-nin və Fransanın sülh üçün təminatçı qismində göstərən Dekotini sonradan ABŞ və Avropa vasitəçiliyinin ən etibarlı təminat olduğundan söz açır. Yaxşı olar ki, ali diplomatik təmsilçi sözünün əvvəli ilə axırını uzlaşdırmağı bacarsın. Nəzərə alsın ki, diplomatiyada hər söz və fikir fiksasiya olunur. Eləcə də onun "Dağlıq Qarabağ" ifadəsini dilə gətirməsi. Ərazi bütövlüyü və suverenlikdən danışan diplomat bilməlidir ki, beynəlxalq hüquqla tanınmış Azərbaycan ərazilərində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur.

Amma, görünür, Dekotininin bu ifadəni işlətməsi təsadüfi deyil. O, yenidən "Dağlıq Qarabağ münaqişəsi" uydurmaq niyyətindədir və bildirir ki, münaqişə üzrə 2020-ci ildən mövcud olan təminat sistemi işləməyib. Səfir "nəticə məntiqini" ona görə ortaya atır. Yəni deyir ki, təminat sisteminin işlək olmayan durumundan nəticə çıxarılmalıdır.

***

Belə nəticəyə gəlirik ki, səfir Dekotini 2020-ci ildən sonrakı təminat dedikdə, Rusiyanın Azərbaycan – Ermənistan münasibətlərinin tənzimlənməsindəki roluna nəzərdə tutub. Əlbəttə, onun ümumi şəkildə yanaşması da mümkündür. Hər bir halda, Dekotini təminatın Ermənistan üçün effektiv nəticələr vermədiyini deyir. Bir sözlə, İrəvanın hazırkı acınacaqlı durumuna görə Moskvanı günahlandırır.

Fransız səfirin məhz "Dağlıq Qarabağ" məntiqinə köklənməsi həm də o deməkdir ki, 2020-ci ildən sonrakı təminatlar Qarabağı Ermənistanın idarəçiliyində saxlamaq üçün yetərli olmadı. Yəni, səfir bu yetərsizlikdən nəticə çıxarılmasının vacibliyini bildirir. Deməli, ayının min oyunu bir armudun başındadır. Beləliklə, Dekotininin şəxsində Fransa, bilavasitə olmasa da, bilvasitə Qarabağı da Ermənistan kimi gördüyünü təsdiqləyir. Belə qənaət hasil olur ki, İrəvanın Paris tərəfindən silahlandırılmasının məğzində məhz bu amil dayanır.

Bəli, Dekotini fikirləri ilə özünüifşanın müasir diplomatik obrazına çevrildiyinin fərqində olmaya bilər. Ancaq bu adamın dedikləri ilə əslində, nəyə nail olmaq istədiyi aşkardır. Səfir 2020-ci ildən sonrakı təminatların faydasızlığı ritorikasına baş vurmaqla, Azərbaycanın 2023-cü ildə öz ərazi bütövlüyünü təmin etməsini, suverenliyinə qovuşmasını şübhələndirir. Elə isə onun Ermənistanın silahlandırılmasının Azərbaycana qarşı olmadığına dair təminatına necə inanaq? Əlbəttə, inanmaq qeyri-mümkündür. Bir daha əmin oluruq ki, Fransa pozuculuq niyyətinə köklənir, Ermənistanı Azərbaycanla yeni müharibəyə təhrik edir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Ermənistan: siyasi dalanda yeni konstitusiya axtarışları



II MƏQALƏ

**Geniş sosial kəsimlərin hakimiyyətə qarşı kəskin narazılığı siyasi böhranı münaqişəli situasiyaya çevirə bilər.**

**Vladimir Melnik**

## "Maşa aqressor" qapalı geosiyasi dairədə

**I məqalədəki sonuncu tezisdən aydın olur ki, Ermənistanın aqressivliyi dünya təcrübəsində müşahidə edilmiş siyasi böhranlardan fərqli izahlara malikdir. Belə ki, XX əsrdə Avropa dövlətləri, adətən, özlərinin güclü olmalarına istinad edərək yad torpaqlarda böhranlar yaratmış, işğallar həyata keçirmiş və əldə etdikləri saxlamaq üçün başqa güclü dövlətlərlə savaşmışdır. Bunu şərti olaraq, "klassik siyasi böhran modeli" adlandıraq. Adətən, bu böhranlardan sonra onu yaradan güclü dövlət konstitusiya dəyişikliyinə getməmişdir. Nadir hallarda güclü dövlətlər öz Ana yasalarında nəyisə dəyişərlər. Bu, bir qayda olaraq, güclü dövlət daha güclü və təsir dairəsi daha əhatəli olan inkişaf səviyyəsinə yüksələndə və ya toplumda total yeniliklər baş verəndə olur. Məsələn, Türkiyə yeni konstitusiya qəbul etməyə hazırlaşır. Çünki Türkiyə Cümhuriyyəti daha yüksək inkişaf və daha əhatəli təsir səviyyəsinə çatmışdır və bunların Ana Yasada əks olunması vacibdir.**

Ermənistan isə nəyə nail olmuşdur? Müsbət heç nəyə! Bəs onda İrəvan hansı səbəblərdən konstitusiyası ilə bağlı ajiotaj yaratmağa çalışır? Guya, hazırkı ölkədaxili siyasi, sosial, ideoloji, iqtisadi, idarəetmə və digər reallıqların fonunda ciddi yeni inkişaf bazası yarada bilər? Bu, bizə hələlik absurd arzu kimi görünür, lakin Ermənistan, həqiqətən, konstitusiyasında müəyyən dəyişikliklər etməlidir ki, heç olmasa salamat qala bilsin.

Deməli, Ermənistanın indiki konstitusiya dəyişikliyi ilə bağlı atmaq istədiyi addımın arxasında açıq deyilməyən iki məqam dayanır.

Birincisi, son 300 ildə ermənilərin və sonra Rusiyanın, onlara torpaq hədiyyəsindən sonra, "Ermənistan" adlandırdıqları qondarma ölkədə dövlət qurmaq cəhdləri heç bir müsbət nəticə verməmişdir. Bunu artıq üstüörtülü də olsa etiraf edirlər.

İkincisi, XXI əsrin gəlişi ilə Ermənistan özünü çıxılmaz qapalı geosiyasi labirintə salmışdır. O, daxili və xarici miqyasda elə ziddiyyətlər yaratmışdır ki, indiki konstitusiyanın verdiyi hüquqi imkanlar onlardan xilas olmağa yetərli deyildir. Buna görə də mütləq konstitusion dəyişiklik olmalıdır.

Bunlardan Ermənistanın siyasi böhranının yeni növünü yaratdığı və buna görə də ondan xilas yollarının hələ müəyyən edilmədiyi qənaətini almaq olar. Yuxarıda vurğulanan ümumi tezislərin fonunda erməni siyasi böhranının daha konkret politoloji izahını verməək olar.

## Siyasi böhrana aparan yol

Ermənistanın yaratdığı siyasi və geosiyasi böhranın başlıca səbəbi onun dövlət və toplum olaraq zəifliyindən qaynaqlanmışdır. Son 300 illik tarixlərində ermənilər mənəvi və siyasi-ideoloji aspektlərdə daim uydurma faktlarla qidalanmışlar. Onları kənardan təsirlərə inandırmışlar ki, qədim xalqdırlar, güclü dövlətlər qurmuşlar və bu "şanlı tarixi" bərpa etmək olar. Bunun üçün başlanğıc şərt kimi türk və müsəlmanları mütləq mənada düşmən kimi qəbul etməlisən. Guya, erməni dövlətçiliyi ona görə tarixdə duruş gətirə bilmədi ki, onu türk müsəlmanlar məhv etdilər. Yəni burada psixoloji olaraq bir xalqın taleyinin onun özünün daxili keyfiyyətləri ilə deyil, kənardan olan təsirlərə formalaşdırıldığını zavallı erməni kütləsinə sırımağa başladılar.

Bu prosesin maraqlı bir cəhəti vardı. Bir tərəfdən, erməni dövlətçiliyini başqalarının məhv etdiyini sadə ermənilərə sırımaqla faktiki olaraq onların zəif olduqlarını şüuraltına yeridirdilər. Digər tərəfdən isə ermənilərin çox qədim və güclü olmalarını aşılamağa çalışırdılar. Bu iki zidd xəttin psixoloji anatomiyasını erməni şüuru anlaya bilmədi və o,kənardan olan tovlatmalara tam olaraq aldandı. Nəticədə erməni mentaliteti və siyasi şüurunda çox ciddi əyintilər və hətta şizofrenik faktorlar inkişaf etdi.

Ermənilər türk və müsəlmanlara, o cümlədən, azərbaycanlılara qarşı elə nifrət etdilər ki, dünyada misli görünməmiş cəza üsulları, təhqir formaları, işgəncə metodları yaratdılar. Onlar heç bir əsas olmadan milyonlarla türk – müsəlmanın həyatını məhv etdilər. Minbir işgəncə, təhqirlər və əxlaqsız savaşlarla, sözün əsl mənasında, soyqırımları törətdilər. Soyqırımı törətməkdə ermənilər avropalıları da keçdilər.

Bütün bunlar erməni psixologiyasında və davranışında heç yerdə görünməmiş radikalizm, ultramillətçi amillər, qatı nifrət və saymazlıq yaratdı. Ermənilərə tədricən kənardan edilən havadarlıqlar onlarda bütün situasiyalarda mənəvi, sosial, siyasi və hüquqi aspektlərdə haqlı olduqları kimi yalançı təsəvvürlər formalaşdırdı. Onlara elə gəldi ki, bütün hallarda erməni həm üstün, həm də haqlıdır. Və bunun əksi də doğrudur: bütün hallarda türk-müsəlmanlar geridə qalmış və haqsızdırlar. Bu durumun uzun müddət erməni şüurunda qalmasına Cənubi Qafqazın əvvəlcə Rusiya imperiyasının, sonra isə SSRİ-nin tərkibində olması rəvac verdi. Həmin mərhələdə ermənilər xüsusi təbliğ olunur və bunun fonunda azərbaycanlılar aşağılanırdı.

Kremlə elə gəlirdi ki, ermənilərin timsalında əbədi olaraq özünə sadiq kölələr yetişdirə bilmişdir. Lakin ruslara münasibətdə də ermənilər ənənəvi dönüklüklərində qaldılar. II Qarabağ savaşından sonra Ermənistan rəhbərliyi adəti üzrə özünü deyil, yenə kənar qüvvəni ittiham etdi. İrəvan konkret olaraq Rusiyanı onu müdafiə etməməkdə günahlandırmağa başladı və bu proses son zamanlar, ümumiyyətlə, Ermənistanın özünə yeni havadar axtarışı ilə xarakterizə olunmaqdadır. Etiraf edək ki, Ermənistanın siyasi böhrana düşməsində onun bu dönüklüyü də ciddi rol oynamışdır.

Yuxarıda qeyd edilənlər göstərir ki, Ermənistanın hazırkı siyasi böhranının fonunda aparılan yeni konstitusiya müzakirələrinin kökündə dövlət və millət zəifliyi faktı dayanır. Burada "zəiflik" anlayışının iki aspekti nəzərdə tutulur. Birincisi, Ermənistan həmişə öz daxili tələbatına görə deyil, kənardan olan təsirlərə görə siyasi addımlar atmışdır və bu proses davam edir. İkincisi, bir toplum olaraq ermənilər uydurma faktlar əsasında qonşu xalqlara qarşı dərin nifrət üzərində tərbiyələnmişlər ki, bu da yekunda konkret psixoloji apatiya və hətta ətrafa şizofrenik münasibət formalaşdırmışdır. Ermənilər toplum olaraq hazırda dünyanın başlıca çağırışlarını anlaya bilmirlər və buna görə də dəyişikliklərə verdikləri reaksiyalar adekvat deyildir.

Erməni siyasi böhranının digər əlaməti cəmiyyətdə hakimiyyət – xalq münasibətlərinin qarşılıqlı etimatsızlıq mühiti üzərində qurulması ilə bağlıdır. İqtidar cəmiyyətin bir çox kəsiminə, cəmiyyət də isə bütövlükdə, hakimiyyətə etibar etmir. Politoloji terminlə desək, hər iki tərəf "siyasi kredit" limitini artıq keçmişdir. Buna görədir ki, hazırda Ermənistanda kütləvi etirazlar dalğası sənginir – hər kəs qarşısındakını günahlandırır. Hakimiyyətin legitimsizliyi olduqca ciddi məsələdir və belə bir ölkədə sabitlik mümkün deyildir. Sağlam düşüncəyə əsaslanan və konstruktiv xarakter daşıyan qərarların qəbul edilməsi ehtimalı da sıfra yaxındır. Bu səbəbdən, Ermənistanda yaxın zamanlarda siyasi böhranın finişə çıxacağına inanmaq çox çətindir.

Erməni siyasi böhranının başqa bir özəl xüsusiyyəti onun qəti geosiyasi kurs müəyyən edə bilməməsindən qaynaqlanır. İndi rəsmi İrəvan Rusiyaya deyil, Qərbə üstünlük verdiyini bəyan edir. Ancaq buna Kreml kəskin reaksiya verdikdə praktiki addım ata bilmir. İrəvan nəzərə alır ki, indi arxalandığı Qərb Gürcüstanda M.Saakaşvili hakimiyyətini axıra kimi qoruya bilmədi. Eyni ssenari İrəvanda da təkrar oluna bilər. Bunun üçün Ermənistan rəhbərliyi çevik geosiyasi seçim etməlidir. Proseslər isə göstərir ki, o, buna qadir deyildir. Xüsusilə, Antalyada Rusiya xarici işlər naziri Sergey Lavrovun Ermənistanın geosiyasi oyunu ilə bağlı faktiki olaraq təhdidedici və aşağılayıcı fikirlər bəyan etməsindən sonra, ölkə üzərində qara buludların dolaşdığı haqqında daha çox danışılmağa başlanmışdır. Məsələ ondan ibarətdir ki, S.Lavrov açıq ifadə etmişdir ki, Moskva Ermənistanla bağlı mövqeyinə yenidən baxa bilər ki, bu da çox şeyin dəyişməsi ilə xarakterizə olunar. Ekspertlər bu fikri birbaşa xəbərdarlıq və təhdid kimi qiymətləndirirlər. Açıq deyək ki, hazırda Rusiya ilə münasibətlərin həssaslığı Ermənistanın indiki siyasi böhranının mərkəzi punktunu təşkil edir.

Vurğuladığımız xüsusiyyətlərlə yanaşı, Ermənistanın indiki siyasi böhranında Azərbaycanla münasibətləri normallaşdıra bilməməsinin həlledici rol oynadığını da demək lazımdır. Çünki Ermənistanı indiki vəziyyətə həm də Azərbaycanın II Qarabağ savaşında və 23 saat 41 dəqiqəlik antiterror tədbirlərində əldə etdiyi qələbələr salmışdır. Bu qələbə Ermənistanın indiyə qədər yeritdiyi daxili və xarici siyasətin yararsızlığını üzə çıxarmışdır.

Hərb meydanında isə Azərbaycan Ordusu, sözün həqiqi mənasında, Ermənistan ordusunu darmadağın etmişdir. Bununla da Ermənistan bir dövlət kimi hərbi məğlubiyyətə uğramış, bir cəmiyyət kimi də "qəflət yuxusunda yatdığı"nı anlamışdır. Konkret olaraq, erməni cəmiyyəti başa düşmüşdür ki, Ermənistan ordusu haqqında indiyə kimi yalanlar danışmışlar və ölkənin təhlükəsizliyinin kənar qüvvələrə etibar edilməsi tarixi səhv olmuşdur. Bu faktorların birgə təsiri nəticəsində Ermənistan cəmiyyəti psixoloji bədbinliyə düçar olmuş və onun acı nəticələri cəm halında siyasi-psixoloji və sosial böhran yaratmışdır.

## Daxili ziddiyyətlər və yeni konstitusiya

Sual nə ritorikdir, nə də ittihamedici. O, Ermənistanın daxili durumunun real mənzərəsindən çıxış edərək sağlam düşüncəyə əsaslanır. Doğrudan da, dövlətçiliyin, millilik anlayışının və idarəetmənin müasir tələblərə uyğun məzmunlaşmadığından yaranmış dərin və əhatəli siyasi böhranı, sadəcə olaraq, yeni konstitusiya vasitəsilə aradan qaldırmağı düşünmək ciddi haldımı? Bu, arabanı atın qabağına qoşmaq misalını xatırladır. Əgər siyasi böhran XX əsrin siyasi böhranlarından fərqli olaraq dövlətin güclü olmasından deyil, zəifliyindən və daha dəqiqi, ümumiyyətlə, müstəqil dövlətin qurulmasının alınmamasından qaynaqlanırsa, burada hüquqi aspektin aparıcı rol oynaması yetərli ola bilməz.

Öncə, Ermənistan cəmiyyətinin özü "sağalmalı"dır. Ermənilər toplum halında psixoloji və özündən razılıq ilğımından qurtulmalıdırlar. Bu isə konstitusiya ilə tənzimlənən məsələ deyildir. Burada daha dərin sosial-psixoloji, mədəni və ideoloji qatlarda işləmək lazımdır. Xüsusilə, ermənilərin "millət" və "ideologiya" anlayışları dəyişməlidir. Bu, baş verməsə, heç bir hüquqi qaydalar, hətta konstitusiya çərçivəsində tətbiq edilsə belə, fayda verməyəcək. Əksinə, köhnə təfəkkürlü cəmiyyətlə yeni konstitusiyanın prinsipial məqamları arasında ziddiyyətlər kəskinləşəcək ki, bu da ortaya yeni siyasi böhran çıxaracaqdır. Ondan erməni xalqının və hakimiyyətin qurtuluşu mümkün olmayacaq. Deməli, rəsmi İrəvanın indi tutduğu yol yeni siyasi dalana aparır. Ancaq xilas yolu vardır.

## Tarixi etiraflar: siyasi böhrandan çıxış yolu

Ermənistan dövlət və xalq olaraq üç tarixi etirafı qəbul etməlidir. Birinci, erməni millətçiliyinin düzgün məzmunlaşdırılmaması, ikinci, qonşu dövlətlərlə münasibətlərin real və ədalətli geosiyasi, sosial-psixoloji, mədəni-mənəvi, siyasi kriteriyalar üzərində qurulmaması, üçüncü, Azərbaycanın qələbəsini səmimi qəbul edə bilməməsi. Yalnız bu etiraflardan sonra yeni konstitusiyadan danışmaq olar.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

KÖŞƏ

# Separatizmin qondarma "yadigarlarına" SON!

**Bu gün doğma Qarabağımızda gedən geniş bərpa-quruculuq işləri ilə bağlı xəbərlərə sevinirik. Yeni yollar çəkilir, binalar inşa edilir, torpağa onun sahibinin nəfəsi dəyir və bunları görən təbiət də canlanır.**



**İmran BƏDİRXANLI**
**imranbedirxanli01@gmail.com**

Amma Xankəndidə binalar sökülür. Niyəsi hər kəsə məlumdur. Gəlin əvvəlcə sökülən binaların "tarixinə" qısaca nəzər yetirək.

Hayların "Artsax parlamenti" adlandırdıqları birinci binanın açılışı Xankəndidəki xunta rejiminin elan olunmasının 16-cı ildönümündə – 2007-ci il sentyabrın 2-də olub. "Təntənəli mərasimdə" iştirak edən Ermənistan parlamentinin spikeri Tiqran Torosyan həmin tikilini "Dağlıq Qarabağ Respublikası"nın "möhkəm dayandığını" göstərən növbəti "sübut və möhtəşəm hadisə" adlandırıb.

"Artsax respublikasının qəhrəmanlarının xatirəsinə" inşa edilmiş ikinci bina. Onun tikintisi separatçı rejimin "müdafiə nazirliyinin" dəstəyi, eləcə də erməni diasporunun zəngin nümayəndələrindən biri, 2014-cü ildə maliyyə fırıldaqlarına görə Moskvada həbs olunmuş, canını elə həbsxanada tapşırmış Levon Ayrapetyanın xeyriyyə fondu, Qarabağın işğal olunmuş ərazilərinə böyük sərmayə yatırmış "VALLEX-qrup", Rusiyanın müxtəlif şəhərlərindəki erməni diasporlarının sponsorluğu ilə aparılıb. "Qəhrəmanlar binası"nın açılış mərasimi 2013-cü il mayın 9-da Ermənistanın o zamanki prezidenti Serj Sarkisyan və qondarma rejimin rəhbəri Bako Saakyanın iştirakı ilə keçirilib. Separatçı xunta rejimi həmin gün Xankəndinin mərkəzi meydanında düzənlədikləri "bayram tədbirində" həm də Şuşanın işğalını "qeyd" ediblər.

Yada salaq ki, Xankəndi şəhərinin baş planı hələ SSRİ vaxtında Azərbaycanın rəhbəri, ulu öndər Heydər Əliyev tərəfindən təsdiqlənib. Sovetlər dönəmində şəhərdə geniş inşaat işləri həyata keçirilib. Amma işğaldan sonra şəhərin bütün mənzərəsi pozulub, baş plana uyğun olmayan yöndəmsiz binalar tikilib. Bədnam qonşular xaricdəki dəstəkçilərinin hesabına torpaqlarımızı işğal etdikdən sonra Xankəndinin memarlıq simasını da haylaşdırmaqla məşğul olublar. Beləcə, şəhərin özünəməxsus şərq memarlığı tamamilə pozulub. Tamamilə doğru olaraq Xankəndinin milli memarlıq üslubuna zidd, hay zəkasının məhsulu sayılan əcaib-qəraib tikililərin hamısının sökülməsinə qərar verilib. Başqa cür ola da bilməzdi. Öz doğma şəhərlərində yaşayacaq vətəndaşlarımız niyə hər gün "işğal yadigarları" sayılan "separatçı abidələri" görməli və əsəbiləşməlidirlər?

Sökülən iki binanın adına fikir verin: "Artsaxı azad etmiş döyüşçülərin" şərəfinə tikilən "Veteranlar binası" və "Artsax parlamentinin" binası. "Parlament" adlanan bina Azərbaycana qarşı işğalın, hərbi cinayətlərin və soyqırımı ssenarilərinin yazıldığı, alçaq qərarların qəbul olunduğu terroruç yuvası olub. Terrorun, separatizmin, riyakarlığın və nifrətin rəmzi olan həmin binalara nə bizim, nə də bəşəriyyətin ehtiyacı var. İşğal dönəmində Şuşada "dqr" parlamentinin binasının bünövrəsi atılmışdı. Vətən müharibəsinin gedişində o bina topçularımızın nişangahına tuş gəldi. Yəqin ki, oxucular Prezident, Ali Baş Komandan İlham Əliyevin həmin binanın qarşısındakı çıxışını yaxşı xatırlayırlar.

İndi Xankəndidə tarixin ədalət axarı ilə baş verənlərə bəzi ölkələr hay-küylə yanaşır, xunta rejiminin "rəmzi", "yadigar"ı kimi inşa edilmiş binaların sökülməsinə rəsmi İrəvan siyasi don geyindirməyə çalışırlar. Qoy səslərinin qalın yerinə salıb ürəkləri istədikləri qədər bağırsınlar. Bizim onlara qulaq kəsilməyə vaxtımız yoxdur. Çünki Qarabağı dirçəltməklə, ona işğala qədərki simasını qaytarmaqla məşğuluq.

Əgər Xankəndidə sökülən binalar daşınan əmlak olsaydı, yəqin separatçılar Qarabağdan köçərkən onları da unitaz kimi bellələrinə şələləyib özləri ilə aparardılar. Aparıb indi üz tutduqları xarici ölkələrdə basdırardılar. Axı həmin "hay memarlıq abidələrinin" harada olmasının onlar üçün nə fərqi var: Kaliforniya, Marseldə, Beyrutda, yoxsa Armavirdə?

Biz öz işimizi görürük və bu işlərə qanını Vətən torpağına qatan minlərlə şəhidimizin ruhu şadlanır, qazilərimiz qürurlanır, qurtuluş savaşında çiyni çiynimizə dayamış, mənəvi dəstəyini əsirgəməmiş dostlarımız xalqımızla bərabər sevinir.

Bəli, biz qurub-yaradan xalqıq. Amma Azərbaycan vətəndaşına işğalı xatırladan hər şeyi silməkdə, yerlə-yeksan etməkdə də qərarlıyıq!

# Daşkənddə dostluq dərsi



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Daşkənd Şərqşünaslıq Universitetinin tələbələri üçün Azərbaycan – Özbəkistan dostluğu mövzusunda açıq dərs keçirilib.**

Tələbələr Mədəniyyət Mərkəzində fəaliyyət göstərən Heydər Əliyev muzeyi, Azərbaycan – Özbəkistan Dostluq muzeyi, Azərbaycan tarixi və dövlətçiliyi muzeyi və Azərbaycan xalçaları muzeyi və sərgi zalını gəzib, orada olan eksponatlarla, hər iki ölkənin tarixi və mədəniyyətini əks etdirən kitablarla, şəkillərlə, musiqi alətləri, milli geyimlər və s. ilə yaxından tanış olublar.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov tələbələrlə görüşərək onlara Azərbaycan – Özbəkistan əlaqələrinin tarixi və inkişafı barədə ətraflı məlumat verib.

O, ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni kökə malik olan Azərbaycan və özbək xalqları arasındakı əlaqələrin qədim dövrlərə gedib çıxdığını xüsusi vurğulayıb. Dahi Azərbaycan şairi Nizami Gəncəvi və özbək mütəfəkkiri Əlişir Nəvainin yaradıcılığı barədə ətraflı məlumat verən Samir Abbasov iki qardaş xalq arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsində gənclərin xüsusi rolu olacağına əminliyini bildirib.

Sonda Şərqşünaslıq Universitetinin tələbələri ətraflı məlumat üçün Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasova təşəkkür edib, belə dərslərin tələbələrin dil öyrənməsində və mənimsəməsində böyük rolu olacağını bildiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

# Ermənilərin türk-islam mədəni irsinə qarşı səlib yürüşü



**Ümumilli lider Heydər Əliyev hələ 1999-cu ildə Naxçıvan Muxtar Respublikasınn 75 illik yubileyinə həsr olunmuş dövlət komissiyasının iclasında Azərbaycanın tarix elmi qarşısında çox mühüm bir vəzifələr qoymuşdu. Azərbaycan tarixçilərinin qarşısında ümdə vəzifələrdən biri kimi dünya ictimaiyyətinə ermənilərin Azərbaycan torpaqlarını mənimsəməsində irəli sürdükləri "elmi" dəlillərin əsassız və uydurma olduğunu sübut etmək və bunun üçün də Cənubi Qafqazın yeni tarixi konsepsiyasını yaratmaq vəzifəsi dururdu. Ulu öndər demişdi: "Biz... bütün bu iddiaların əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün də əsaslı sənədlər, fundamental elmi, populyar əsərlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq".**

Ümummilli liderin çağırışından sonra bizim tərəfimizdən Azərbaycan-Ermənistan siyasi münasibətləri və hayların Azərbaycan xalqına qarşı irəli sürdükləri torpaq iddialarının tarixçəsi geniş tədqiq olunmuş və nəticələr 2003-cü ildə nəşr olunmuş monoqrafiyada ( Вафа Кулиева. Роль и позиция мусульманского духовенства в



социально-политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, "Нурлан", 2003 г.) öz əksini tapmışdır.

Yüksək elmi səviyyədə, çoxsaylı mənbələrə əsaslanaraq (epiqrafik, Orta əsr Azərbaycan hökmdarlarının fərmanları, arxiv sənədləri) Cənubi Qafqazda tarixən heç bir erməni dövlətinin olmadığı monoqrafiyada sübuta yetirilmişdir.

Tədqiqatlarımız Antanta ilə Çar Rusiyasının Cənubi Qafqazı xristianlaşdırma siyasətinin davamı kimi Sovet Rusiyasının bu regionda ermənilər üçün ilk dövlətin 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradılmasını təsdiqləyir. Ermənistan Respublikası Türkiyə və türk dünyası arasında bufer rolunu oynayaraq, tarix boyu rus siyasətçilərinin təbirincə desək, Qafqazda Rusiyanın forpostu rolunu oynamışdır. 1920-ci ildə Cənubi Qafqazda erməni dövlətinin yaradıldığını onun tarixinin yazılması ehtiyacını irəli sürdü.

Məlumdur ki, Cənubi Qafqazın tarixi konsepsiyası hələ XX əsrin ortalarında İ.P.Petruşevski tərəfindən "XVI-XIX əsrin əvvəllərində Azərbaycan və Ermənistan feodal münasibətlərinin tarixi oçerk"ində işlənilib. Bu konsepsiyanın əsasını erməni dövlətçiliyinin Cənubi Qafqazda dərin köklərə malik olduğu ideyası təşkil edir.

İ.P.Petruşevskinin və erməni tarixçilərinin əsərlərində Qərbi Azərbaycan torpaqlarında, guya, mövcud olmuş erməni dövlətinin "Qafqaz Ermənistanı və Ararat respublikası" adlandırdıqları anlayışa Orta əsr mənbələrinin heç birində rast gəlinmir. Bu sənədlərdə Ermənistanın yerləşdiyi ərazi ÇuxurSəd adlanır və Azərbaycan anlayışına daxildir. Sənədlərin təhlili Cənubi Qafqazın yeni tarixi konsepsiyasının işlənməsinə zəmin yaradır və Azərbaycan tarixinin sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını sübuta yetirir.

Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan tədricən sıxışdırılıb çıxarılması ilə yanaşı, onlara məxsus olan maddi-mədəniyyət abidələri dağıdılıb, yer adları erməniləşdirilibdir.

1988-ci ildən sonra kütləvi terrora məruz qalmış azərbaycanlılar Qərbi Azərbaycan ərazisini tərk etmək məcburiyyətində qalmış və bundan sonra bu ərazidə qalmış azərbaycanlılara məxsus olan memarlıq abidələri, maddi-mədəniyyət nümunələri dağıntılara, məhvə məhkum olmuşdur.

Qərbi Azərbaycanda, Zəngəzurda aparılan ciddi elmi araşdırmalar 1961-ci ilə təsadüf edir. Demək olar ki nə ondan əvvəl və nə də ondan sonra bu əraziyə Azərbaycan alimləri buraxılmamışdır. Məhz həmin ildə Qarabağda və Zəngəzurda Azərbaycan və erməni alimlərinin birgə elmi ekspedisiyası fəaliyyətə başlayır. Zəngəzurun Urud (Oront) qəbiristanlığında XV-XVI-cı əsrlərə aid sənduqə formalı və qoç heykəlli məzar daşları aşkarlanır. Abidələrin üzərində həkk olunmuş Quran ayələri və birinin üzərində olan "Allah, Məhəmməd, Əli. Min evladi avğvan" kitabəsi (yəni alban nəslindən) və qədim türk tayfalarına məxsus onqonların (tanrıların) Tibet yak öküzü, şamanların, Humay quşunun və s. təsvirləri (см. Мешадиханум Неймат, Корпус Эпиграфических памятников Азербайджана, т.I, стр.9-15, III, №1042-1058) alban tayfalarının İslamı qəbul etməsini və ondan çox-çox əvvəl türkləşməsini sübuta yetirir. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, "Şöhrət" ordenli Məşədixanım Nemətin bu elmi kəşfi ona qədər sovet tarixşünaslığında mövcud olan Qafqazın xilafət tərəfindən istilasından sonra xristian olan alban tayfalarının erməniləşməsi və gürcülüşməsi konsepsiyasını alt-üst edir və Azərbaycan türklərinin Qafqazda gəlmə deyil yerli, köklü xalq olduğunu təsdiqləyir. Məşədixanım Nemət Urud abidələrini 1981-ci ildə nəşr etdirdiyi "Мемориальные памятники Азербайджана" (Azərbaycanın memorial abidələri) kitabına salır və Azərbaycan xalqının mədəni irsi kimi təqdim edir.

Buna cavab olaraq erməni "alimləri" xəttat savadsız olmuş, kitabəni səhv yazmışdır, – deyə "Min evladi avğvan" (yəni alban nəslindən) kitabəsinə hərflər əlavə edərək oxunuşunu "Avlağum Vağudlu" kimi təqdim edirlər. A.D.Papazyanın yazdığına görə, Orbelyan nəslindən olan Avlağum vagudluları Əmir Teymur türkləşdirmiş və onlara İslamı qəbul et-





dirmişdir. Həmən Urud qəbiristanlığında yatanlar da onlardır. Guya, azərbaycanlılar heç vaxt Zəngəzurda (Sisian) yaşamamışlar və Zəngəzur Azərbaycan torpağı deyil. Lakin A.D.Papazyanın 1959, 1968-ci illərdə çap etdirdiyi "Персидские документы Матенадарана» («Matenadaranın fars sənədləri"), "Персидские купчии Матенадарана" (Matenadaranın fars çıxarışları) əsərlərindəki sənədlərdə Zəngəzurun Naxçıvana, Naxçıvanın isə Azərbaycan ölkəsinə daxil olduğu göstərilir.

Digər erməni alimi Z.S.Xaçikyan yazır ki, Teymurun istilası zamanı Syunikdə yaşamış Avlağum vaqudlular İslamı qəbul etməsinlər deyə Gürcüstanın Lori dağlarına köçdülər (Z.S.Xaçikyan, Pamyatnıe zapisi Armyanskix rukopisey XV v. Avtoreferat, Dokt.diss., Erevan, 1961 q.). Beləliklə, A.D.Papazyanın irəli sürdüyü fikir digər erməni tarixçisi tərəfindən təkzib olunur. Bundan sonra Urud qəbiristanlığı dağıdılır və Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar öz dədə-baba yurdlarından didərgin salınırlar.

Ermənilər epiqrafika sahəsində də böyük saxtakarlıqlara yol verirlər və məqsəd üç dəniz arasında (Aralıq, Qara və Xəzər dənizləri) "Böyük Ermənistan" dövlətinin tarixən mövcudluğunu sübut etməkdir. Bu saxtakarlığın bariz nümunəsi kimi A.A.Xaçaturyanın "Корпус арабских надписей Армении XIII-XVI вв." (Ереван, 1987) (XIII-XVI əsr Ermənistanın ərəb yazıları korpusu) əsərini qeyd etmək olar. Burada müəllif Türkiyənin İxlat, Ərzincan, Ərzrum, Azərbaycanın tarixi və müasir torpaqları olan – Zəngəzur, Naxçıvan, Göycə ərazisindəki abidələri daxil etmişdir. O, abidələrin coğrafiyasını və xronologiyasını qarışdıraraq, sözlərə hərflər əlavə etməklə saxtakarlığa yol vermişdir. Tarixi mənbələri təhrif edərək, Əbdürrəşid Bakuvinin "Kitab-o Təlxis əl-asar və əcayib əl-məlik əlqəhhar" əsərində "Abşeronda xristianlar yaşamışdır" ifadəsini saxtalaşdıraraq, "Abşeronda ermənilər yaşamışdır" sözləri ilə əvəz etmişdir.

Haylar dağıda bilmədiklərini erməni milli memarlıq abidəsi kimi təqdim edirdilər. Onlar Anadoludan Çinə qədər Araz boyu karvan-ticarət yolu – İpək yolu üzərində Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilmiş karvansaranı (h.729–1328-29 il) "erməni milli memarlıq abidəsi" kimi təbliğ edib xüsusi buklet də nəşr ediblər. (Arutunyan V.M., Yerevan, 1984 il) (bax. Мешадиханум Неймат, Корпус Эпиграфических памятников Азербайджана, т.III, №991, стр.62). Həmin yol üzərində Zəngilanın Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd türbəsinin (vəf.1305 il) qapısı üzərində qoyulmuş kitabə ölçüsü, forması, həkk olunan texnikasına görə qeyd olunan karvansara kitabəsinin eynidir. Belə kitabənin üçüncüsünə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib. Qeyd olunan kitabədə XIV əsrdə İpək yolu üzərindəki bütün abidələri yaratmış memar Əli Nəcməddinin adı çəkilir.

Abidənin içərisində erməni dilində divara bir yazı qoyulmuşdur. Bu yazıda olan mətnlə qapının üzərinə hörülmüş yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazar Universitetinin müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki, "tatarlar" (yəni azərbaycanlılar) sonradan bu karvansaraya Səlim adı vermiş və ərəbcə yazını qapının üzərinə qoymuşlar. Halbuki ərəbcə yazı bina tikildiyi zaman qapının üzərinə hörülmüşdür. Maraqlısı odur ki, ermənilərin çap elədikləri bukletdə karvansara Səlim karvansarası adı ilə çap olunub. İstər-istəməz belə bir sual meydana çıxır, əgər bu erməni milli-mədəni abidəsidirsə, niyə ermənilər bunu "tatarlar" adlandırdıqları kimi adlandırırlar?

Erməniləşdirmək istədikləri digər abidə Azərbaycan Qaraqoyunlu dövləti, ÇuxurSəd əmirlərinə aid İrəvanın 8 kilometrliyində Cəfərabad kəndində yerləşən möhtəşəm türbədir.



Ermənilər türkmən alimlərini dəvət edərək bu abidənin bünövrəsində qazıntı işləri aparmış və belə bir qənaətə gəlmişlər ki, Qaraqoyunlu dövləti İran dövləti olub, onun başında türkmən (müasir türkmənləri nəzərdə tuturlar) əmirləri durublar və ərazisində erməni maddi-mədəniyyət abidələri olub. Bu cəfəng elmi nəticə yalnız xəstə təfəkkürün məhsulu ola bilər. Qaraqoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək qeyri-elmidir və düzgün deyil. Ona görə ki, onlar XIII əsrdə Anadoluda yarım köçəri tayfa birləşmələrindən ibarət idi. Onların mərkəz vilayətləri Arciş, Van gölünün şimalında yerləşirdi.

Bundan əlavə, memarlıq-konstruktuv formasına görə bu abidə Naxçıvanda yerləşən Möminə-xatun və Yusif bin Kəbir türbələri ilə eynidir və Əcəmi bin Əbu Bəkr memarlıq məktəbinin davamıdır.

Qeyd olunan yerdə bir neçə türbə və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olmuşdur. Hamısı dağıdılıb. (Мешадиханум Неймат, Корпус Эпиграфических памятников Азербайджана, т.III, №1027, стр.66-67).

**(ardı var)**

***Vəfa QULİYEVA,***
***tarix elmləri doktoru***

# Qarabağda meşələrimizə də divan tutulub



**Sivil dünya təbiətin ana təbiətin "ağ ciyərləri" sayılan meşələrin qorunmasına böyük önəm verir. Amma erməni vandalları 30 ilə yaxın müddətdə Azərbaycan təbiətinə, xüsusilə də meşələrimizə qarşı əsl soyqırımı həyata keçiriblər. Onlar Azərbaycan ərazisindəki çox qiymətli ağacları vəhşicəsinə doğrayaraq, onların qiymətli oduncağını xarici bazarlara çıxarıb satmışlar.**

2020-ci ilin payızında 44 günlük şanlı savaşdan sonra erməniləri ərazilərimizdən qovandan sonra məlum olmuşdur ki, Cəbrayıl rayonundakı Karxulu kəndindəki yaşıllıqlardan əsər-əlamət qalmayıb, burada yol kənarlarında olan qoz və digər qiymətli ağaclar, eləcə də rayon mərkəzində el arasında "Xan çinarı" adlandırılan, yaşı 800 ildən çox olan şərq çinarını məhv etmişlər.

Həmin azman çinarın dibindən dumduru göz kimi kəhriz suyu axırdı və şəhər sakinləri, eləcə də çox sayda qonaqlar o sudan içdikcə doydum deməzdilər. İndi nə o çinar, nə də kəhriz qalıb. Ermənilər çinarı kəsib doğrayıblar, kəhrizi isə dağıdıblar.

Cəbrayıl rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov ürək ağrısı ilə qeyd etdi ki, işğal dönəmində rayon ərazisindən keçən Araz çayı vadisindəki bütün ağaclar yandırılıb. Həmçinin çoxyaşlı iridiametrli qoz ağacları material kimi doğranaraq müxtəlif məqsədlər üçün Ermənistana daşınıb və bir hissəsi xaricə satılıb. Bundan başqa, Cəbrayılın çox qiymətli Sirik meşələri da insafsızcasına talanaraq yandırılıb.

**Ağsaqqal ziyalı sonra hiddətini boğa bilməyərək dedi:**

– Cəbrayılın yandırılan meşə və yaşıllıqlarına baxanda düşünürsən ki, sanki bu ərazilərdən vəhşi tayfalar keçiblər. Çünki zərrəcə insafı olan bir toplum təbiətə qarşı belə barbarlığa yol verməzdi.

Ermənilər həmçinin Cəbrayılla qonşu Füzuli rayonunun geniş meşə massivləri ilə örtülü olan Dövlətkarlı kəndində ağacları bütünlüklə qırıblar, rayonun Qoçəhmədli kəndinin əsas işlək yolu boyunca sıralanan uca ağacları kütləvi şəkildə məhv ediblər, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqları tamamilə yox ediblər. Düşmən Füzuli rayonundan qovulandan sonra bəlli olub ki, vandallar rayonun on minlərlə hektar ərazisini yandırıblar.

İşğalçılar Zəngilan və Qubadlı rayonlarında da təbiətə qarşı ağlasığmaz vəhşiliklər törədiblər. Xüsusilə Zəngilan rayonu ərazisində yerləşən Bəsitçay Dövlət Çinar Meşəsində ermənilərin törətdiyi bədxah əməllər işğalçıların vəhşi xislətini bir daha ortaya qoyur. Bu yaxınlarda ekologiya üzrə vətəndaş cəmiyyəti fəalı Habil Niftalı həmin qoruqda olub. O, kədərli səslə söylədi ki, düşmənlər 107 hektar ərazini əhatə edən bu qoruqqda qiymətli şərq çinarı ağaclarını vəhşicəsinə qırıblar.

Vandallar eyni yaramaz əməlləri Qubadlı rayonunun meşələrinə qarşı da tətbiq ediblər. Bu bölgədən olan qocaman ziyalı Razim Əliyev bizimlə söhbətində qeyd etdi ki, onun doğulub boya-baş çatdığı Əyində (mərhum Xalq yazıçısı Süleyman Rəhimovun rəndidir-red) haylar qırdığını qırıb, qıra bilmədiyini isə yandırıblar. Razim müəllim əmindir ki, erməni faşistləri Qarabağda törətdikləri ekoloji terrora görə də layiqincə cəzalandırılacaqlar.

Hayların vəhşi əməllərindən ən çox əziyyət çəkən bölgələrimizdən biri isə Laçındır. Bura haqlı olaraq flora və faunasına görə Azərbaycanın ən zəngin bölgələrindən sayılır. Hesablamalara görə, Böyük və Kiçik Qafqaza xas olan 600 bitki növündən 540-ü Laçın bölgəsində təbii olaraq bitir. Bu göstərici Yer kürəsinin digər coğrafi məkanları ilə müqayisədə ölçüyəgəlməz dərəcədə böyükdür.

Ermənilər 30 il ərzində fransalı havadarları ilə birlikdə işğal altında olan ərazilərdə Dəmirağacı, Qırmızı palıd kimi qiymətli ağacları qıraraq daşıyıblar. Məlumat üçün bildirək ki, Laçın rayonu ərazisində Dəmirağac və Qırmızı palıd Həkəri çayının sahillərində bitir. Bu bölgədə yerləşən Qaragöl Dövlət Təbiət Qoruğu və Laçın Dövlət Yasaqlığının zəngin flora və faunası da dağıdılaraq talan edilmişdir.

Daşnaklar Laçın rayonundakı Picəniş və Hacışamlı meşəliklərindən Qırmızı palıd ağaclarını qıraraq konyak, çaxır istehsalında istifadə olunan çəlləklərin hazırlanması üçün Fransaya aparmışlar. Hacılar - Sadınlar kəndlərinin ərazisində olan 65 hektar meşə sahəsi da bu niyyətin qurbanı olmuşdur.

Məlumat üçün bildirək ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində məşhur iş adamları – Nobel qardaşları Dəmirağacının əsas alıcıları olaraq onu dünya bazarına çıxarmışlar. Bu qiymətli materialdan istifadə edən sənətkarlar original ornamentli oymaları olan gözəl sənət inciləri yaratmışlar. Laçın meşələrindəki Dəmirağacdan hazırlanmış və rus çarı II Nikolaya hədiyyə edilmiş taxt-tac hazırda Sankt-Peterburqdakı Ermitaj Muzeyində saxlanılır.

Belə bir sual ortaya çıxır: Beynəlxalq qurumların ermənilərin meşələrimizə qarşı uzun illər ərzində törətdikləri terrordan xəbəri olubmu? Əlbəttə, olub. Lakin susublar. Bu haqsızlığa göz yumublar, hayların təbiətə qarşı apardıqları "səssiz terror"ub qarşısını almaq üçün heç bir addım atmayıblar.

Bəli, bu, danılmaz bir həqiqətdir ki, ermənilərin dağıtdıqları və yandıqdıqları meşə və yaşıllıqlar səbəbindən ölkəmizdə çox sayda bulaqların gözü bağlanmış, kəhrizlər sıradan çıxmışdır.

Burada el ağsaqqallarının qiymətli kəlamları yada düşür: ağac da, su da müqəddəsidir, kəhrizlərimizə, çeşmələrimizə yad nəfəsi, xain əli dəyəndə onlar quruyur, axar səmtini belə dəyişirlər.

Ulu Dədə Qorqud demişkən, qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy, çıraqlarımız sönməsin!

***Kəmalə ABDİNOVA,***
***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Ziyadxan Nəbibəyli,**
**texnika elmləri doktoru,**
**professor**

Məlumdur ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 1,7 milyon hektar ərazisi zəbt olunub. Düşmən tərəfindən Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə, bütövlükdə regionun ekoloji durumuna ciddi ziyan vurulub, bu da öz növbəsində ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarıb.

Respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla, ümumi ərazinin 14 faizini təşkil edir. Yeri gəlmişkən, Azərbaycanın ümumi meşə ərazilərinin 49 faizi Böyük Qafqazın, 34 faizi Kiçik Qafqazın, 15 faizi Talış dağlarının, 2 faizi isə aran zonasının payına düşür.

Meşələr respublikamızın sosial-iqtisadi, mədəni, müdafiə sahəsindəki inkişafında da əhəmiyyətli rol oynayır. Burada xatlrlatmaq yerinə düşər ki, Ermənistan meşələrinin sahəsi respublikamızın meşələrinin sahəsindən 3 dəfə azdır.

Bu, danılmaz faktdır ki, işğal altında qalmış ərazilərimiz vəhşicəsinə qırılıb talan edilmişdir. Bu ərazilərdə bitən qiymətli ağac cinslərinin kəsilib aparılması biomüxtəlifliyin qorunmasını böhran həddə çatdırmışdır.

Haylar Laçın təbiətinə məxsus nadir heyvan və quşları da məhv etmişlər. Azğınlaşmış düşmənin təbiətə qarşı talançılığı ekoloji təbii tarazlığın pozulmasına da öz mənfi təsirini göstərmişdir.

İndi söyləyəcəyim fakt çoxlarını şoka salacaq. Zəhmət olmasa, belə bir k kəskin təzada diqqət yetirin. Fransada hələ 1215-ci ildə dünyada ilk dəfə olaraq "Su və meşələr barədə" dekret qəbul edilmişdir. Çox yaxşı! Amma işğalçı ermənilərlə əlbir olan fransalı işbazlar Azərbaycanın işğal altında olan ərazisindəki gözəl və bənzərsiz meşələrə divan tutmağı özlərinə rəva görüblər. Buradakı qiymətli ağacları isə qeyri-leqal qazanc xətrinə məhv ediblər.

Belə çıxır ki, fransızlar özlərinkini qoruyurlar, bizimkiləri isə dağıdırlar. "Sivil", "mədəni" dövlətin və xalqın ədaləti budurmu? Yox, bu ədalət deyil, cinayətdir!

Bu gün dünya ekoloqları haqlı olaraq həyəcan təbili çalırlar ki, planetimin bir çox guşələrində meşələrin insafsızcasına qırılması baş verir. Bu səbəbdən şirin su mənbələri azalır.

# “Şəfəq” layihəsi Qarabağa şəfəq saçacaq



(əvvəli 1-ci səhifədə)

Martın 6-da ƏMSSTQ sənədinin ilkin variantını müzakirə etmək üçün ictimaiyyətlə görüş keçirildi. Tədbiri BP-nin şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı açaraq qurumun ötən 32 il ərzində Azərbaycanda həyata keçirdiyi layihələr barədə məlumat verdi. Qeyd olundu ki, BP şirkəti və onun tərəfdaşları Azərbaycanda və regionda həyata keçirilən layihələrə indiyədək 84 milyard ABŞ dollarından artıq investisiya yatırıb. O, həmçinin dedi ki, BP artıq Azərbaycanda “yaşıl enerji” layihəsini həyata keçirməyi planlaşdırır. Onun sözlərinə görə, bu layihə şirkətin sıfır neytrallığa nail olmaq məqsədinə və bərpaolunan enerji sektorunun inkişafında Azərbaycanın maraqlarına cavab verir.

T.Bayatlı Azərbaycanın neft-qaz sektorunda həyata keçirilən bir sıra iri layihələrin operatoru olan BP şirkəti tərəfindən ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi üçün belə bir layihənin həyata keçirilməsi təqdirəlayiq addım kimi dəyərləndirdi. Bildirdi ki, bu addım digər əcnəbi şirkətlərin də Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələrinin icrasında yaxından iştiraka sövq edə bilər.

BP-nin ətraf mühit və sosial məsələlər üzrə baş planlama mütəxəssisi Aaron Şihan “Şəfəq” layihəsinin iş proqramı çərçivəsində həyata keçiriləcək tədbirlər barədə məlumat verdi. O dedi ki, Cəbrayıl şəhərindən 5-10 kilometr məsafədə yerləşəcək günəş elektrik stansiyası, təxminən, 802 hektarlıq ərazini əhatə edəcək və 240 meqavat dəyişən cərəyan ( MVtAC ) gücünə malik olacaq. Ümumilikdə isə, layihəyə 240 MVtAC gücündəki PV günəş elektrik stansiyasının layihələndirməsi, təchizatı, mühəndislik, tikinti, quraşdırma, sınaq, istismara buraxma işləri və istismar mərhələsi daxildir. Aaron Şihanın sözlərinə görə, layihə çərçivəsində tikinti işləri, təxminən, 18 ayadək davam edəcək.

Daha sonra şirkətin baş məsləhətçisi Ülviyyə Seyidməmmədova ƏMSSTQ sənədi çərçivəsində “Şəfəq” layihəsi üzrə aparılacaq fəaliyyətlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri və onların azaldılması, eləcə də ərazidə biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlər barədə məlumat verdi. Qeyd olundu ki, bu ay Ekologiya Nazirliyinə təqdim olunması planlaşdırılan ƏMSSTQ sənədinin aprel ayında təsdiq olunması gözlənilir.

Tədbirdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Nicat Kərimov çıxış edərək layihənin ərsəyə gəlməsində xüsusi əməyi olan BP şirkətinin komandasına təşəkkürünü bildirdi. Qeyd olundu ki, layihə hazırda icra mərhələsində olan Dövlət Proqramına mühüm töhfə olmaqla yanaşı, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə tam uyğundur. Onun sözlərinə görə, Böyük Qayıdış Proqramı çərçivəsində yaxın illərdə Cəbrayıl şəhərinə böyük köçün başlanması ilə əlaqədar bu kimi layihələr məşğulluğun təminatına mühüm töhfələr verəcək.

Sonda tədbir iştirakçılarının layihə ilə bağlı çoxsaylı sualları ətraflı cavablandırıldı, rəy və təkliflərlə bağlı geniş müzakirələr aparıldı.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

**Ekspert rəyi**

**İlham ŞABAN, Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



BP-nin işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində günəş elektrik stansiyasının inşa edilməsi ilə bağlı qərarı özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, adətən, dünyada bu sahədə ixtisaslaşmış şirkətlər “yaşıl enerji”yə öz töhfələrini verirlər.

Bunun Azərbaycan üçün də əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, Xəzəryanı ölkələr içərisində ilk dəfə məhz Azərbaycanda ən böyük neft və qaz hasilatçısı olan şirkət belə bir layihənin ilhamvericisi rolunda çıxış edir. Digər tərəfdən, cəmi il yarımdan sonra, 2025-ci ilin sonlarında stansiya istismara verildikdən sonra bu, postsovet məkanında ilk ən böyük günəş elektrik stansiyası kimi tarixə düşəcək. Məlum olduğu kimi, “Şəfəq” Günəş Elektrik Stansiyasının istehsal gücü 240 meqavat olacaq ki, bu da kifayət qədər böyük rəqəmdir. Eyni zamanda, Xəzərin coğrafi məkanında ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı tam olaraq “yaşıl enerji” hesabına ödəniləcək. Yeri gəlmişkən, 550 hektar ərazidə yerləşən bu nəhəng enerji obyekti, ümumilikdə, 60 milyon tona qədər nefti və təqribən, 30 milyard kubmetrdən çox qazı nəqletmə imkanına malikdir.

BP, həm də Azərbaycanın bərpaolunan enerji sektoruna, Cəbrayılda günəş elektrik stansiyasının tikintisinə ona görə sərmayə qoyur ki, regionun təbii şəraitindən asılı olaraq günəş enerjisini daha çox elektrik enerjisinə çevirmək imkanları qazansın. Eyni zamanda, həmin enerjini “AzərEnerji”nin mövcud sistemi vasitəsilə Səngəçal terminalına çatdırsın. Bununla da, neft və qaz ixracı zamanı karbon izi deyilən məsələni minimuma endirsin.

Yeri gəlmişkən, BP-nin bərpaolunan enerji sektoruna, təqribən, 300 milyon dollar həcmində investisiya qoyması digər şirkətlər üçün də bir siqnal olacaq. Mən deyərdim ki, artıq bunun ilk cücərtiləri baş verib. Ancaq onun daha da genişləndirilməsinə ehtiyac var. Bunun üçün BP-nin imkanları kifayət qədərdir. Çünki BP 2017-ci ildən günəş enerjisi istehsalı sahəsində məşhur olan “Lightsource” şirkəti ilə bu sahədə yaxından əməkdaşlıq edib. İndi isə həmin şirkəti faktiki olaraq alıb.

# Qazaxıstan neftinin BTC ilə nəqli artır

**Ötən ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri çərçivəsində imzalanmış sənədlərin icrası ikitərəfli münasibətlərin kompleks şəkildə inkişafına və çoxşaxəli tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə geniş imkanlar yaradıb. İki ölkə arasında ticarət dövriyyəsində hazırda müşahidə olunan artım dinamikası da nəzərdə tutulan layihələrin uğurla gerçəkləşməsindən irəli gələrək ticari-iqtisadi əlaqələrin möhkəmlənməsini daha da sürətləndirib.**

Azərbaycan–Qazaxıstan iqtisadi münasibətlərində ixrac-idxal potensialından geniş istifadə, nəqliyyat-logistika imkanlarının artırılması, kənd təsərrüfatında sıx əməkdaşlıq, həmçinin birgə investisiya perspektivləri ilə bağlı məsələlər xüsusi yer tutur. Bu sırada Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı ilə əlaqədar imkanların genişləndirilməsi də daim diqqət mərkəzində saxlanılır. Çünki Qazaxıstan neftinin Bakı – Tbilisi–Ceyhan (BTC) neft kəməri ilə nəqli enerji təchizatının diversifikasiyasını təmin edir.



Energetika Nazirliyinin yaydığı məlumata görə, nazir Pərviz Şahbazovun Qazaxıstana səfəri çərçivəsində sözügedən ölkənin energetika naziri Almasadam Satkaliyev ilə görüşündə də bu barədə – BTC əsas ixrac boru kəməri ilə adıçəkilən ölkə neftinin nəqlinin tədricən artırılması ilə bağlı ətraflı danışılıb. Söhbət zamanı Qazaxıstan neftinin respublikamızdan keçməklə çoxistiqamətli tranziti üzrə praktiki addımların atılması, bu xüsusda BTC ilə illik 1,5 milyon ton neftin nəqli ilə bağlı razılaşmanın həyata keçirilməsi, tədarük həcminin tədricən artırılması istiqamətində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və “KazMunayQaz” arasında əməkdaşlıq yüksək qiymətləndirilib.

Görüşdə iki ölkə arasında münasibətlərin inkişafında enerji sahəsində əməkdaşlığın xüsusi rolu qeyd edilib. Enerji əlaqələrinin karbohidrogen sektoru ilə yanaşı, bərpaolunan enerji üzrə genişləndirilməsinin hökumətlərarası komissiyanın fəaliyyətində prioritet istiqamətlərdən biri olduğu bildirilib.

Elektrik enerjisinin Mərkəzi Asiyadan Azərbaycana, buradan isə Avropaya ixracı ilə bağlı Azərbaycan – Qazaxıstan – Özbəkistan arasında üçtərəfli görüş zamanı əldə edilmiş razılaşmaya uyğun işlərin gedişatı da nəzərdən keçirilib. Qafqaz regionu və Mərkəzi Asiyanın enerji sistemlərini sualtı kabel vasitəsilə əlaqələndirən layihənin texniki-iqtisadi əsaslandırma prosesinə başlanılması məqsədilə görüləcək tədbirlər müzakirə edilib.

Yeri gəlmişkən, BTC boru kəməri ilə nəql edilən Qazaxıstan neftinin ilk partiyası 2023-cü il aprelin 22-də Türkiyənin Ceyhan limanından yola salınıb. Belə ki, həmin vaxt “Tengiz” yatağından hasil edilən 83,2 min ton (665 min barel) neft “Alatau” tankerinə yüklənib. Bu nailiyyət 2023-cü ilin martında başlayan Qazaxıstanın Aktau limanından Səngəçal terminalına davamlı neft tədarükü və sonradan BTC vasitəsilə nəqli nəticəsində əldə edilib.

Qazaxıstan neftinin BTC ilə nəqli SOCAR və “KazMunayQaz” şirkəti arasında hər il 1,5 milyon ton neftin tranzitini nəzərdə tutan saziş çərçivəsində həyata keçirilir. “Tengiz” yatağından hasil edilən Qazaxıstan neftinin ilk partiyası “Prezident Heydər Əliyev” tankeri ilə 23 mart 2023-cü ildə Aktaudan Səngəçal terminalına gətirilib.

Xatırladaq ki, SOCAR Qazaxıstan neftini BTC boru kəmərinə qəbul etmək üçün 2022-ci ildə Səngəçal terminalının ərazisi və ətrafında toplayıcı boru kəmərləri şəbəkəsinin yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirib. Bu layihələr BTC-nin ötürmə gücündən istifadə səviyyəsini artırıb.

Qazaxıstan neftinin birinci partiyasının Ceyhan limanından yola salınması SOCAR və “KazMunayQaz” arasında tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində önəmli nailiyyət kimi dəyərləndirilib. Eyni zamanda, bu tarixi hadisə Xəzər neftinin dünya bazarlarına nəqli üçün əsas marşrut kimi BTC boru kəmərinin strateji rolunu təsdiqləyərək regional enerji əməkdaşlığının əhəmiyyətini bir daha sübut edib.

Qeyd edək ki, 1768 kilometr uzunluğunda olan BTC boru kəməri vasitəsilə respublikamızdan “Azəri–Çıraq–Günəşli” nefti və “Şahdəniz” kondensatı, eləcə də digər mənbələrdən xam neft və kondensat həcmləri nəql olunur. BTC boru kəmərinin hazırkı ötürmə gücü gündə 1,2 milyon barel və ya ildə 50 milyon ton təşkil edir.

Bu məqamda onu da xatırladaq ki, Qazaxıstanın “KazMunayQaz” milli şirkətinin mətbuat xidmətinin mediada yayılan məlumatına əsasən, 2023-cü ildə Qazaxıstanın BTC boru kəməri ilə neft ixracının həcmi artaraq 1 milyon 392 min tona çatıb. “KazMunayQaz” milli şirkətinin törəmə müəssisəsi olan “KazTransOil” Səhmdar Cəmiyyəti (SC) isə ötən il ərzində Aktau limanından 3 milyon 376 min ton (2022-ci ilin analoji dövrü ilə müqayisədə 1 milyon 108 min ton çox) Qazaxıstan nefti ixrac edib.

Aktau limanından Qazaxıstan xam neftinin nəqlinin həcminin artması BTC boru kəməri istiqamətində göndərilən xammalın artması ilə əlaqədardır. Belə ki, ötən il bu göstərici 2022-ci ildəki 250 min tondan 2023-cü ildə 1 milyon 392 min tona çatıb. Xüsusən, Tengiz yatağından bu istiqamətdə 1 milyon 57 min ton xam neft boşaldılıb. Bundan başqa, hesabat dövründə Aktau limanından Mahaçqala limanı istiqamətində də 1 milyon 984 min ton neft tədarük edilib.

Qeyd edək ki, ildə təqribən 60 milyon ton neft nəqletmə imkanına malik olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə Türkmənistan nefti də nəql olunur. Ekspertlər isə hesab edirlər ki, Xəzəryanı ölkələrin neftinin BTC boru kəməri vasitəsilə nəqli tranzit ölkə kimi Azərbaycana yüksək gəlirlər vəd edir. Göründüyü kimi, ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində həyata vəsiqə alaraq real fəaliyyət sahəsinə çevrilmiş Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin regional və beynəlxalq əhəmiyyəti ildən-ilə artır. Elə ölkəmizlə enerji sahəsində əməkdaşlığa xüsusi önəm verən Qazaxıstan da yaxın illərdə öz neftini dünya bazarına çıxarmaq üçün BTC-yə daha çox ümid bəsləyir.

**Vaqif BAYRAMOV**
**XQ**

# Milli valyuta ehtiyatları 11 milyard dolları keçib

**Mərkəzi Bankın (MB) valyuta ehtiyatları hazırda 11 milyard 650 milyon ABŞ dolları təşkil edir.**




MB-nin məlumatına əsasən, bu, fevral ayının 1-i ilə müqayisədə 0,1 faiz çoxdur. Bankın valyuta ehtiyatları son 1 ildə isə 28,8 faiz artıb.

**XQ**

# 2 ayda 26 min əmək müqaviləsi

**İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, cari ilin əvvəlindən əmək müqavilələrinin sayı 26 minədək artıb və bunun 23 mindən çoxu qeyri-neft-qaz özəl sektorunda qeydə alınıb.**




Bildirilib ki, qeyri-neft-qaz sektorunun özəl bölməsində bağlanmış müqavilələrin sayı dövlət sektorundakı (neft-qaz sektoru istisna olmaqla) müvafiq göstəricini 59 min vahid qabaqlayaraq ümumi əmək müqavilələrində 50 faizi keçib. İş yerlərinin rəsmiləşdirilməsinin təmin edilməsi istiqamətində islahatın başladığı 2019-cu ildən indiyədək işçilərlə işəgötürənlər arasında bağlanmış əmək müqavilələrinin sayı 432 mindən çox, qeyri-neft-qaz sektorunun özəl bölməsində isə 381 mindən çox artıb.

**XQ**

# Əmanət sığortalanması 273 milyon manata yüksəlib

**Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun (ADIF) məlumatına görə, qurumun aktivləri 2023-cü il yanvarın 1-nə 566 milyon manat (2022-ci ilin yanvarın 1-i ilə müqayisədə 14 faiz çox) təşkil edib. ADIF-in kapitalı isə 64,4 faiz artaraq 273 milyon manata yüksəlib.**



Qeyd edək ki, ADIF 2007-ci ildə yaradılıb. Fondun əsas məqsədi banklar iflasa uğradıqda və onların depozit qəbulu üzrə lisenziyası ləğv olunduqda bank yığımlarının əmanətçilərə qaytarılmasına zəmanət verməkdir.

**XQ**

# Ağdam parkında yeni sənaye müəssisəsi



**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında “Ağdağ” MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verildiyini bildirib.**

Nazir daha sonra qeyd edib ki, şirkət tərəfindən adıçəkilən parkın ərazisində əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq. İnvestisiya dəyəri 15 milyon manat olan həmin zavodda 100 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulub.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 115** **Bakı şəhəri, 5 mart 2024-cü il**

***Sərbəst olmayan istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılmasına əsas verən müddətin müəyyən edilməsi haqqında***

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Sərbəst olmayan istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılmasına əsas verən müddət bir ay müəyyən edilsin.

**2.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 116** **Bakı şəhəri, 5 mart 2024-cü il**

***"Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 24 may tarixli 1344 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2022-ci il 27 aprel tarixli 1670 nömrəli və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 18 avqust tarixli 1812 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2385 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 24 may tarixli 1344 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2022-ci il 27 aprel tarixli 1670 nömrəli və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 18 avqust tarixli 1812 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2385 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 189 (Cild I) 1-1-ci hissəsi ləğv edilsin.

**2.** "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954 (Cild I) 10-cu hissəsi ləğv edilsin.

**3.** "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın və "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2512 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli və 23 yanvar tarixli 38 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın 3-cü hissəsi ləğv edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın 3-cü hissəsi ləğv edilsin.

**4.** "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1277 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**5.** "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**6.** "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1361 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**7.** "Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 may tarixli 163 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 730 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**8.** "Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 251 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1090 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

**9.** "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 252 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1091 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 117** **Bakı şəhəri, 5 mart 2024-cü il**

***"Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2387 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

"Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2387 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli 507 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1608 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**2.** "Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli 508 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1609 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 118** **Bakı şəhəri, 5 mart 2024-cü il**

***"Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilsin:

"1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 4.9-cu bəndinə uyğun olaraq inteqrasiya həyata keçirilənədək Dərman vasitələrinin dövlət reyestrinin məlumatları dəyişikliklər (dövlət qeydiyyatı müddətinin bitməsi, yenidən dövlət qeydiyyatına alınması, istehsalçının dəyişməsi, istehsal ölkəsinin dəyişməsi, yeni qablaşdırma miqdarı) göstərilməklə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən ayda bir dəfə elektron formada Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinə təqdim edilir.

1-2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası" üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq Dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş dərman vasitələrinin (yalnız ixrac üçün Azərbaycan Respublikasında istehsal edilmiş dərman vasitələri istisna olmaqla) topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra – Şura) tərəfindən tənzimlənir.";

2.1.2. 1.4-cü bəndə "qiymətlərlə" sözündən əvvəl "həddən yuxarı olmayan" sözləri əlavə edilsin;

2.2. 2.5-ci bənddə "vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər (bundan sonra – istehsalçılar)" sözləri "vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi (bundan sonra – ərizəçi)" sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. adına "qiymətlərinin" sözündən sonra "yuxarı həddinin" sözləri əlavə edilsin;

2.3.2. 3.1-ci bəndin birinci cümləsində "qiyməti" sözü "qiymətinin yuxarı həddi" sözləri ilə əvəz edilsin;

2.3.3. 3.2-ci bənddə "qiyməti" sözü "qiymətinin yuxarı həddi" sözləri ilə, "qiymətinə" sözü "qiymətinin yuxarı həddinə" sözləri ilə əvəz edilsin;

2.3.4. 3.4-cü bəndə "qiymətlərinin" sözündən sonra "yuxarı həddinin" sözləri əlavə edilsin;

2.3.5. 3.5-ci bəndin birinci cümləsində "qiymətləri" sözü "qiymətlərinin yuxarı həddi" sözləri ilə, ikinci cümləsində "qiymətlərlə" sözü "qiymətlərin yuxarı hədlərindən yüksək olmamaqla" sözləri ilə əvəz edilsin;

2.3.6. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

"3.6. Tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitəsinin yalnız topdansatış qiymətinin yuxarı həddi təsdiq edilir.";

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Dərman vasitələri dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçilər tərəfindən qiymət tənzimlənməsi üçün Şuraya müraciət edilir. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Katiblik tərəfindən həyata keçirilir.";

2.4.2. 4.2-ci bəndin birinci və ikinci cümlələrində "İstehsalçılar" sözü "Ərizəçilər" sözü ilə əvəz edilsin;

2.4.3. 4.3.1-ci yarımbənddə "Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması haqqında sənədin (qeydiyyat vəsiqəsinin)" sözləri "dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin" sözləri ilə əvəz edilsin;

2.4.4. 4.3.2-ci yarımbənd ləğv edilsin;

2.4.5. 4.3.3-cü yarımbənddə "həmin ölkələr üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən Azərbaycan dilinə rəsmi tərcüməsi təsdiq edilən qiymət sənədləri" sözləri "Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilən sənədlər" sözləri ilə əvəz edilsin;

2.4.6. 4.3.5-ci yarımbənddən "notariat qaydasında təsdiq edilmiş" sözləri çıxarılsın;

2.4.7. 4.5-ci və 4.6-cı bəndlərdə "istehsalçıya" sözü "ərizəçiyə" sözü ilə əvəz edilsin;

2.4.8. 4.7-ci bəndin birinci cümləsində "istehsalçının" sözü "ərizəçinin" sözü ilə əvəz edilsin;

2.4.9. 4.9-cu, 4.11-ci və 4.12-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.9. Dərman vasitələri dövlət reyestrinin Şuranın informasiya sistemi ilə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

4.11. Bu Qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla, dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçi tərəfindən qiymət tənzimlənməsi üçün müraciət edilmədiyi halda, Şura tərəfindən istinad ölkələri, habelə açıq informasiya mənbələri olan ölkələr üzrə məlumatlar əsasında araşdırma aparılmaqla, bazis qiymət müəyyən edilərək qiymət tənzimlənməsi həyata keçirilir.

4.12. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 4.11-ci maddəsinin ikinci cümləsində qeyd olunan dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi dərman vasitələrinin istehsalçısı tərəfindən Şuraya müraciət edildikdə həyata keçirilir.";

2.5. 5-ci hissə üzrə:

2.5.1. 5.1-ci bəndə "üzrə" sözündən sonra "istehsal ölkəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin;

2.5.2. 5.2-ci bəndin birinci cümləsinə "rübdə" sözündən sonra "azı" sözü əlavə edilsin;

2.5.3. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dərman vasitələri haqqında verilən məlumatlarda Şura tərəfindən təsdiq edilmiş qiymətlər əks olunur.";

2.5.4. 5.6-cı bənddə "istehsalçılar" sözü "ərizəçilər" sözü ilə, "Katibliyə yenidən bəyannamə təqdim" sözləri "Şuraya yenidən müraciət" sözləri ilə əvəz edilsin;

2.5.5. 5.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.8. Aşağıdakı dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin müəyyənləşdirilməsi bu Qaydanın 5.9 – 5.13-cü bəndlərinə uyğun olaraq həyata keçirilir:

5.8.1. əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələri;

5.8.2. resept olmadan buraxılan dərman vasitələri.";

2.5.6. aşağıdakı məzmunda 5.9 – 5.14-cü bəndlər əlavə edilsin:

5.9. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən həyata keçirilir.

5.10. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsasən həyata keçirilir.

5.11. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Şura tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin rəyləri alınır.

5.12. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən dərman vasitəsinin bazis qiymətinə onun 10 faizi və nəzarət markasının qiyməti əlavə olunmaqla həyata keçirilir.

5.13. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq həyata keçirilir.

5.14. Ərizəçilərin əsaslandırılmış müraciətinə əsasən tənzimlənmiş qiymətlərdə texniki xətalarla bağlı Şura tərəfindən düzəlişlər edilir. Bu düzəlişlər dərman vasitəsinin qiymətinin yenidən tənzimlənməsi hesab edilmir.";

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci bənddə "üzərində dövlət tərəfindən tənzimlənmiş qiymətlər" sözləri "qablaşdırılmasının üzərində Şura tərəfindən təsdiq edilmiş yuxarı həddən yüksək olmamaqla, pərakəndə satış qiymətləri" sözləri ilə əvəz edilsin;

2.6.2. 6.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.2. Dərman vasitələrinin qablaşdırılmasının üzərində pərakəndə satış qiymətlərinin göstərilməsi aptek təşkilatları tərəfindən təmin edilir. Dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş üsullarla göstərilir.";

2.6.3. 6.3-1-ci bəndə "məlumatların" sözündən əvvəl "zəruri" sözü əlavə edilsin və həmin bənddən "vaxtında və ya" sözləri çıxarılsın;

2.7. 7-ci hissə və Qeyd hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# "Adın şərəflidir sənin, ey qadın!"





**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 8 Mart Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir keçirilib.**

Milli Məclisin deputatlarının, dövlət və özəl sektor, qeyri-hökumət, beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin respublikanın bütün regionlarından qadınların, görkəmli ictimai-siyasi xadimlərin iştirak etdikləri tədbirdə Prezident İlham Əliyevin Azərbaycan qadınlarına ünvanladığı təbrik məktubu oxunub.

Məktubu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva səsləndirib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qadınların çalışdıqları hər sahədə uğur qazanmaları üçün ölkəmizdə bütün şəraitin yaradıldığını bildirib. Qeyd edib ki, dövlətimiz tərəfindən qadınlara xüsusi diqqət və qayğı göstərilir, onların əməyi yüksək qiymətləndirilir.

Bahar Muradova bildirib ki, son 20 ildə dövlət idarəçiliyində gender amilinə diqqət artırılıb, qadın hüquqlarının təminatı, onların səlahiyyətləndirilməsi və iqtisadi cəhətdən gücləndirilməsi istiqamətində böyük irəliləyişlər əldə edilib.

Diqqətə çatdırılıb ki, ölkəmizdə ictimai həyatın bütün sahələrində qadınların rolu ildən-ilə daha da artır, ictimai, sosial-iqtisadi, mədəni, mənəvi sahələrdə qadınlar fəal iştirak edirlər.

Sonra dövlətimizin qadın siyasətindən bəhs edən videoçarx nümayiş olunub. Tədbir konsert proqramı ilə davam edib.

**XQ**

# Hikmət Hacıyevin Türkiyənin XİN başçısının müavini ilə görüşü



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin xarici işlər nazirinin müavini Yasin Ekrem Serimlə regional normallaşma proseslərini müzakirə edib.**

Bu barədə Türkiyə XİN-in mətbuat xidməti sosial şəbəkədə bildirib.

"Nazir müavinimiz Yasin Ekrem Serim Azərbaycana səfəri çərçivəsində Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən qəbul edilib.

Görüşdə qardaşlıq münasibətlərimiz və regional normallaşma prosesi ətrafında fikir mübadiləsi aparılıb", – paylaşımda qeyd olunub.

# COP29: ekoloji həmrəylikdən birgə səylərə



**Dünən xarici işlər naziri Ceyhun Bayramov Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan və Dünya Bankı arasında əməkdaşlıq perspektivləri, habelə cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) irəli gələn məsələlər müzakirə olunub.

COP29-a sədrliyimiz çərçivəsində aparılan substantiv danışıqlar prosesi, habelə 29-cu sessiyaya hazırlıq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, sədrliyimizin əsasən qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə maliyyə resursları və investisiyaların cəlbinə vurğu etdiyini söyləyib. Bu istiqamətdə dövlətlərlə yanaşı, beynəlxalq maliyyə institutlarının prosesə mümkün töhfəsinin müəyyən edilməsi istiqamətində təmasların aparılması baxımından Dünya Bankının mühüm platforma rolu oynaya biləcəyi qeyd olunub.

Müqabil tərəf Azərbaycanı COP29-a sədrliyi münasibətilə təbrik edərək, ölkəmizin uğurlu sədrlik təcrübəsi nümayiş etdirəcəyinə, habelə sədrlik prioritetlərinə müvafiq olaraq beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndiriləcəyinə dair inam ifadə edib. Xüsusilə, COP29 çərçivəsində müəyyənləşəcək qlobal iqlim öhdəliklərin öz praktiki icrasını tapması istiqamətində addımlar atılmasının vacibliyi qeyd olunub, Dünya Bankının bu istiqamətdə təşəbbüslərin dəstəklənməsinə hazır olduğu vurğulanıb.

***

**Martın 6-da xarici işlər naziri Ceyhun Bayramov Konqo Prezidentinin strateji məsələlər və beynəlxalq əməkdaşlıq üzrə şəxsi nümayəndəsi Fransua Joli ilə də görüşüb.**

Görüşdə Afrika ölkələri ilə əməkdaşlığın inkişafının ölkəmizin əsas xarici siyasət prioritetlərindən biri olduğu vurğulanıb. Azərbaycan ilə Konqo arasında siyasi, iqtisadi-ticarət və energetika, eləcə də təhsil və humanitar sahələrdə münasibətlərin genişləndirilməsi üçün geniş imkanların mövcud olduğu bildirilib.

Qoşulmama Hərəkatı, BMT və digər beynəlxalq təsisatlar və platformalar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub. Qoşulmama Hərəkatına (QH) üzv dövlətlər üçün təqaüd proqramı çərçivəsində konqolu tələbələrin ölkəmizdə təhsil almaları, Hərəkatın Gənclər Təşkilatında nümayəndələrin iştirakı üçün imkanlar nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) əlavə əməkdaşlıq imkanları yaratdığını diqqətə çatdırıb.

**XQ**

# Ankara ilə hərbi əməkdaşlığın yeni hədəfləri



**Ankarada rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri Yaşar Gülər ilə görüşüb.**

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqlara qardaş ölkənin milli müdafiə naziri onları Türkiyədə görməkdən məmnunluğunu bildirib. Y.Gülər ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Müdafiə naziri türkiyəli həmkarına göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. General-polkovnik Z.Həsənov Azərbaycan və Türkiyə dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

***

**Həmin gün müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün, Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə də görüşüb.**

**XQ**

# Şimal qonşumuzla iqtisadi əlaqələrin yeni üfüqləri

**(əvvəli 1-ci səhifədə)**

İkitərəfli formatda regionlararası forumlar da artıq öz səmərəliliyini sübuta yetirib. Hakimiyyət nümayəndələrinin, işgüzar və ekspert dairələrinin forum çərçivəsində görüşləri keçirilir, konstruktiv və açıq dialoq aparılır. Bu, əlaqələr qurmağa, gələcək birgə fəaliyyət naminə səyləri əyani surətdə koordinasiya etməyə, əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirəsini aparmağa əlverişli imkan yaradır. Reallaşdırılan forumlar, Azərbaycan Respublikasının regionları ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələrin yaradılması üçün tələbat duyulan tədbir kimi dəyərləndirilir.

Cari il yanvar ayının 22-də imzalanan "2024-2026-cı illər üçün əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi" də ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə bundan sonra da mühüm töhfə verəcəyi əminliyi yaradır.

Yeri gəlmişkən, indiyədək mövcud olan Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə yol xəritələrinin icrasının nəticələri də uğurlu olub. Belə ki, yol xəritələrinin icra olunduğu 2018-2023-cü illəri əhatə edən dövr ərzində ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və bir çox digər istiqamətlərdə əməli addımlar atılıb.

Görülən tədbirlər nəticəsində Azərbaycan–Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı dinamikası təmin edilib, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi 2 dəfədən çox artaraq ötən il 4,3 milyard ABŞ dollarından çox təşkil edib. Həmçinin investisiya sahəsində əməkdaşlıq yeni mərhələyə daxil olub, Azərbaycanda Rusiyanın iştirakı ilə böyük investisiya layihələrinin həyata keçirilməsinə başlanılıb.

Ötən il ölkələrimiz arasında perspektivli sahə olan nəqliyyat və tranzit daşımaları sahəsində bir sıra mühüm uğurlar əldə edilib, ikitərəfli yükdaşımaların ümumi həcmində 11 faizdən çox artım qeydə alınıb. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizin əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəlib və 2023-cü ildə dəhlizlə yükdaşımaların həcmi, təxminən, 17 faiz yüksəlib.

Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yükdaşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi 4 dəfəyə yaxın artıb. Həmçinin Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yükdaşımalar 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

Ötən il Azərbaycan ilə Rusiya arasında enerji, kənd təsərrüfatı, gömrük-sərhəd infrastrukturunun təkmilləşdirilməsi, humanitar və bir çox digər sahələrdə də əməkdaşlığın inkişafı ilə bağlı müsbət nəticələr qeydə alınıb.

Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi də investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar konkret addımların atılmasını nəzərdə tutur.

İki ölkə arasında qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan tərəfdaşlıq çoxşaxəlidir və demək olar ki, bütün sahələri əhatə edir. Hazırda bu dövlətlər arasında dinamik iqtisadi-ticari əməkdaşlıq müsbət göstəricilərdə diqqət çəkir. ticarət dövriyyəsi artır, yeni istiqamətlər üzrə önəmli layihələr həyata keçirilir. Nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə qarşılıqlı fəaliyyət iki ölkənin regionlararası səviyyədə əlaqələrini daha da dərinləşdirir. Qısa müddət ərzində Dağıstan, Tatarıstan, Başqırdıstan, Udmurt respublikaları, Həştərxan, Ryazan vilayətləri, Perm diyarı və Rusiya Federasiyasının digər subyektləri ilə vaxtaşırı qarşılıqlı səfərlər həyata keçirilir.

Xatırladaq ki, Azərbaycan Rusiyanın 80-ə yaxın subyekti ilə iqtisadi və humanitar sahələrdə mühüm əlaqələr qurub, 20 subyektlə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə qarşılıqlı fəaliyyətə dair sənədlər imzalanıb.

Martın 5-də Bakıda Baş nazir Əli Əsədov ilə respublikamızda səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə genişləndirilmiş tərkibdə keçirilən görüşdə də Azərbaycan–Rusiya strateji tərəfdaşlığının müxtəlif sahələrdə yüksək səviyyədə olduğu bildirilib, ikitərəfli əlaqələrin dinamik inkişafının iki ölkənin prezidentlərinin sıx təmaslarının və birgə səylərinin nəticəsi olduğu qeyd edilib. Görüşün sonunda turizm və mədəniyyət, həmçinin Azərbaycan–Rusiya dövlət sərhədindən keçid məntəqələrinin, habelə avtomobil yolu infrastrukturunun inkişafına dair ikitərəfli əməkdaşlığın gücləndirilməsi üzrə bir sıra sənədlər imzalanıb.

***XQ***

# Erməni soyqırımları və beynəlxalq hüquqi məsuliyyət

**Dünən Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Hüquq və İnsan Haqları İnstitutu ilə birgə "Soyqırımı cinayətinə görə beynəlxalq hüquqi məsuliyyət" mövzusunda dəyirmi masa keçirib.**




Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə toplantını giriş sözü ilə açaraq bildirib ki, hüquqşünas alimlərimiz erməni millətçi-separatçılarının xalqımıza qarşı törətdikləri soyqırımları və müharibə cinayətləri barədə faktları dünya ictimaiyyətinə çatdıran, caniləri ittiham edən tədqiqatlar aparıb, çoxsaylı əsərlər yazıblar.

Vəkillər Kollegiyası Akademiyasının rektoru, professor Əmir Əliyev isə qeyd edib ki, xalqımıza qarşı ağır cinayətlərin təşkilində və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilərək mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının və insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılıb.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, İstanbul Universiteti hüquq fakültəsinin professoru Fethi Gedikli, Ankara Universitetinin professoru Cavid Abdullazadə, ANAMA-nın nümayəndəsi Fərhad İsayev, BDU hüquq fakültəsinin dekanı Zaur Əliyev, cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova, dosent Ələvsət Allahverdiyev, BDU Azərbaycan tarixi kafedrasının dosenti Boran Əziz, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova, Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı İlham Malikoğlu mövzu ilə bağlı çıxış ediblər.

Müzakirələr zamanı "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyanın müddəaları təhlil olunub, həmçinin müasir şəraitdə soyqırımı törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi mexanizmlərinə toxunulub.

**Qabil YUSİFOĞLU**
**XQ**

# Sözlə qazanılan nüfuz və qədir-qiymət



**Tanınmış şair-publisist, media qurucusu, Azərbaycan Jurnalistlərinin Həmrəyliyi İctimai Birliyi Komitəsinin sədri Mədət Əyyuboğlu Məmmədovun anadan olmasının 65 illik yubileyi münasibətilə dünən Azərbaycan Mətbuat Şurasında keçirilən mərasim xalqına və dövlətinə sözlə xidmətdə qazanılmış nüfuz və qədir-qiymətin layiqli ifadəsi oldu.**

Şuranın Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə keçirilən toplantını giriş sözü ilə açan Jurnalistlərin Həmkarlar İttifaqının sədri, MŞ İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli Mədət Məmmədovun yubileyini ölkənin media ictimaiyyətinin əlamətdar hadisə kimi qeyd etdiyini vurğuladı və şuranın yubiley diplomunu ona təqdim etdi.

Mərasimin aparıcısı Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu Mədət Məmmədovun zəngin və mənalı həyat yolu barədə məlumat verərək bildirdi ki, 1959-cu ilin martında Ağdam rayonunun Güllücə kəndində anadan olmuş Mədət Məmmədov BDU jurnalistika fakültəsinin tanınmış məzunlarındandır. O, "Azərbaycan" qəzet-jurnal nəşriyyatında mətbuatyayımı üzrə baş müfəttiş, "Dirçəliş" ictimai-siyasi jurnalında məsul katib müavini, "Kənd həyatı" jurnalında baş redaktor müavini, "Doğru yol" qəzetinin baş redaktoru kimi yüksəliş yolu keçdikdən sonra müstəqillik illərində Mətbuat və İnformasiya Nazirliyində şöbə müdiri və KİV baş idarəsinin rəisi kimi məsul vəzifələrə irəli çəkilib.

Sonrakı illərdə Ombudsman Aparatında idarə rəisinin müavini və Azərbaycan Dövlət İnformasiya Agentliyində redaktor vəzifələrində çalışıb. 2003-cü ildən "Jurnalistlər Həmrəyliyi Komitəsi" İctimai Birliyinə rəhbərlik edən həmkarımız ölkəmizdə jurnalist peşəkarlığının artırılmasına, dördüncü hakimiyyətin cəmiyyətdə öz funksiyasını yüksək səviyyədə gerçəkləşdirməsinə öz layiqli xidmətini davam etdirib. "Qızıl qələm", "Həsən bəy Zərdabi" və digər media mükafatlarına layiq görülən Mədəd Məmmədov bunları peşəkarlığına, məhsuldar yaradıcılığına və yüksək ictimai-siyasi mövqeyinə görə qazanıb.

Yubilyarın yaradıcılıq yolu barədə söz açan şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli qeyd etdi ki, Mədət müəllim 65 yaşa təcrübəli jurnalist, istedadlı şair-publisist kimi çatıb.

Sonra MŞ İdarə Heyətinin üzvü Yadigar Məmmədli, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, İƏT Ölkələri Jurnalistlər Assosiasiyasının prezidenti Fazil Güney, Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, əməkdar jurnalist Rəhim Hüseynzadə, Qaçqkomun əməkdaşı Elşən Əliyev, tədqiqatçı jurnalist Loğman Rəşidzadə, veteran jurnalist Xalidə Bağırlı, AMEA-nın əməkdaşları Elçin Mehrəliyev və Yaqut Əşrəfova, "Söz" jurnalının baş redaktoru Sevda Əlibəyli, Respublika Şəhid Ailələri Müdafiə Cəmiyyətinin sədri Camal Əliyev, Mədət Məmmədovun Azərbaycanın müstəqilliyinin ilk illərində azad media quruculuğundakı fəal iştirakından, istedadlı şair və yetkin qələm sahibi olmasından söz açdılar, ona səmimi təbriklərini çatdırdılar.

Sonda Mədət Məmmədov həyat yoluna və fəaliyyətinə verilən yüksək dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirdi.

**T.RÜSTƏMLİ**
**XQ**

Şəhidlər ölməzdir!

# "Sizi kim unudar..."

**Hörmətli oxucu, bu sərlövhə Əməkdar jurnalist İlqar Rüstəmovun Qarabağ müharibəsinin 12 şəhidi, 1 qazisi və 1 həkimi barədə bu yaxınlarda çapdan çıxmış yeni kitabının adından götürülüb.**




Buradakı hekayətlər doğma torpağının namus və qeyrətini bayraq kimi başının üzərinə qaldıraraq, Vətən yolunda ölümün gözünə dik baxmağı bacaranlar barədədir.

Bu igidlərin sayı bir deyil, iki deyil, beş deyil, yüzlərlə, minlərlədir. Onlar bu yurdun qeyrət və namus qalalarıdır. Məğrur, uca çinarlar kimi bu məmləkətə qürur və şərəf gətirirlər.

Kitabda, əsasən, 44 günlük savaşda qeyri-adi şücaətlər göstərən Lerik və qonşu rayonlardan olan şəhidlərdən bəhs edilir. Onlar bu gün Həzi Aslanovların, Mübariz İbrahimovların, Polad Həşimovların və digər əfsanəvi qəhrəmanların davamçılarıdır!

Şəhidlərdən yazmaq, yüksək məqamlarına ən layiqli düşüncələri dilə gətirmək hər qələm əhlinin gücü çatan iş deyil. Bunun üçün içdən gələn sonsuz bir sevgi və yanğı lazımdır. Bu kitab məhz bu sevgi ilə bələnib!

Buradakı oçerklərin, demək olar ki, hər biri son 3 ildə "Xalq qəzeti"ndə dərc olunaraq ev-ev, şəhər-şəhər, bölgə-bölgə bütün Azərbaycanı dolaşıb. Oxucular bu yazıları hər dəfə oxuyub şəhidlərin hünər və qeyrətinə heyran qalıblar, ruhlarına dualar oxuyublar.

Mən həmkarım İlqar Rüstəmovla eyni redaksiyada qonşu və iç-içə olan otaqlarda çalışıram, gün ərzində dəfələrlə yaradıcılıq ünsiyyətində olur, fikir mübadiləsi edirəm. O, sözü və əməlləri ilə bu xalqa, dövlətə, dövlətçiliyə xidmət edən qələm sahiblərindədir.

Bəli, böyük sevgidən qaynaqlanan hər bir ülvi duyğu pak və gözəl olur. Düşünürəm ki, "Sizi kim unudar..." kitabını oxuyanlar razı qalaraq deyəcəklər: "Layiqli əsərdir. Şəhidlərdən, bax, belə yazmaq lazımdır!"

***Məsaim ABDULLAYEV***
**XQ**

# Sənət Qarabağı unutmur



**Milli Məclisin Mədəniyyət komitəsinin dəstəyi, "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyi və "Gözəl yaşam" Mərkəzinin təşkilatçılığı ilə "Hiton" oteldə "Sənət unutmur" sərgisi açılıb.**

Mərasimdə qeyri-ənənəvi tətbiqi sənət növü – "Strinq art" ustası Minarə Mehdinin mərhum deputat Qənirə Paşayevanın istəyi ilə yaratdığı, Şuşada doğulmuş sənət xadimlərinin portretləri və digər əsərləri nümayiş etdirildi. Təqdimatın təşkilatçısı Arzu Bağırova ölkədə qeyri-hökumət təşkilatları üçün yaradılan şəraitdən söz açdı, rəhbərlik etdiyi ictimai birliyin vətəndaş cəmiyyətinin güclənməsinə töhfəsindən, bölgələrdə gördüyü işlərdən danışdı.

O, təşkilatın 6 il öncə məhz Qənirə Paşayevanın xeyir-duası ilə fəaliyyətə başladğını bildirdi. Qeyd etdi ki, Minarə Mehdi ilə ötən il Milli Məclisin Mədəniyyət komitəsində görüşmüşdük. Qənirə xanım ona belə bir ideya vermişdi ki, Qarabağın ünlü dahi şəxsiyyətlərini tabloya çəksin. Sənətdə fərqli yanaşma – yalnız mismar və saplarla bu rəsmləri hazırlamaq ağır zəhmət tələb edir. Qərara aldıq ki, bu sərgi keçirilməlidir. Həm Qənirə xanımın doğum gününə "Ruhu şad olsun!"– hədiyyəsi kimi, həm də onun Minarə xanıma verdiyi sözü yerinə yetirdik.

Milli Məclisin deputatları Arzu Nağıyev, Jalə Əliyeva, Aydın Hüseynov, Ceyhun Məmmədov, Məşhur Məmmədov, Mətbuat Şurasının sədri Rəşad Məcid sərginin keçirilməsini mərhum deputata vəfa borcu kimi dəyərləndirdilər, rəssamın orijinal yaradıcılığından söz açdılar.

Mərasimin aparıcısı, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı bildirdi ki, Qənirə xanım deyirdi ki, bu əsərlər Qarabağdakı muzeylərə, mədəniyyət müəssisələrinə təqdim olunacaq.

Mərasimdə iştirak edən digər deputatlar Anar İsgəndərov, İlham Məmmədov, Tamam Cəfərova, Pərvin Kərimzadə, Vüqar İsgəndərov, şəhid ailələrinin üzvləri, sənət adamları çıxış edərək Qənirə Paşayevanın qısa, lakin mənalı ömür yolundan, ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb, xatirələrini bölüşdülər.

Xalq artisti Simarə İmanovanın oxuduğu "Şirin dəmlər, şirin çağlar bir-bir gəlib düşər yada. Ürək deyər ayrılığın üzü dönsün bu dünyada"– ifası zalda duyğulu anlar yaşatdı.

Rəssam Minarə Mehdi təqdimatın təşkilatçılarına və qonaqlara minnətdarlıq etdi.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qazi rəssamın qələbə soraqlı rənglər aləmi

**İstedadlı rəssam, Qarabağ müharibəsinin iştirakçısı İntiqam Ağayev 1966-cı ildə Sumqayıtda anadan olub. 1989-cu ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət rəssamlıq məktəbini bitirib, 2012-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Sumqayıt, Bakı, Naxçıvan, Tbilisi, Moskva, Ankara və Samsunda mötəbər sərgilərdə uğurla iştirak edib.**

Hələ 2011-ci ildə, İntiqam Ağayevi tanımadığım vaxtlarda Sumqayıt Dövlət Rəsm Qalereyasında nümayiş etdirilən fərdi sərgisinin şahidi olmuşdum. Orada rəssamın "Ümid var" adlı rəsmi çoxları kimi, mənim də diqqətimi xüsusilə çəkmişdi. Bu əsərdə əlində avtomat, qarlı





təpə üstündə əyləşərək, gözlərini uzağa zilləmiş Azərbaycan döyüşçüsü təsvir edilib. Onun yanında torpağın hələ donu açılmamış qatından baş qaldıran yaşıl fidan təsvir edilir. Bu əsər işıqlı gələcəyə, haqqın-ədalətin təntənəsinə – Xocalının qisasının alınacağına inam rəmzi idi.

Böyük Britaniyada yaşayan uşaqlıq dostum, mühəndis-şair Rauf Qaraişıq 3 il əvvəl Vətənə gəlmişdi. Bir axşam mənə təklif etdi ki, Sumqayıtdakı bir rəssam emalatxanasına gedək. İntiqamı nəzərdə tuturmuş. Getdik və rəssamla yaxından tanış oldum. Başqa bir uşaqlıq dostumun – tar müəllimi Murad Həşimovun oğlu, həkim-rəssam Rəhim də orada idi. Söhbətimiz maraqlı məcrada keçdi. Xatirələr, təsviri sənət barədə duyğu və düşüncələr, günün reallıqlarına "müdaxilə"lər xoş təəssürat yaratdı. Ayrılanda mənə dedilər ki, Rauf burada oldu-olmadı, hər vaxt gələ bilərəm.

Onda İntiqamın döyüşçü-rəssam olduğunu bilmirdim. Sonradan internet şəbəkəsində onunla maraqlananda öyrəndim. Sən demə, müstəqil dövlətimizin ordusu yarananda onun ilk əsgərlərindən biri kimi, Qarabağın müdafiəsinə yollanıb. Şuşa, Ağdam, Tərtər, Goranboy, Füzuli və başqa bölgələrdə vuruşub. 1993-cü ildə zabitlik kursu keçərək kiçik leytenant rütbəsi alıb. Tərtər rayonunun ərazisi uğrunda gedən döyüşlərdə başından yaralanan İntiqam sağalandan sonra yenə də səngərə qayıdıb. Baş leytenant rütbəsi ilə ordu sıralarından tərxis olunub. 2-ci qrup Qarabağ müharibəsi əlilidir. Bu faktlar ona olan hörmətimi daha da artırdı.

**İntiqam Ağayevin xatirələrindən:** "O vaxtlar bütün vətənpərvər oğullar silaha sarılıb vuruşmaq üçün yeni yaranmaqda olan hərbi hissələrə axışırdılar. 1992-ci il fevralın sonunda bizi Xocalı istiqamətinə göndərdilər. Həmin vaxt artıq dünyanı sarsıdan qətliam baş vermişdi. Erməni qəsbkarları şəhəri yerlə-yeksan etmiş, dinc sakinləri güllələmişdilər. Bizi yaralıları və meyitləri çıxarmağa cəlb etdilər. Vertolyotumuz havaya qalxanda gördüklərimdən dəhşətə gəldim. Şəhər sakinlərinin meyitləri qarlı meşələrə, dağlara səpələnmişdi. Ermənilər dinc adamlara da aman verməmişdilər. İlk cəhdimizdə iki qocanın və bələkdə olan bir körpənin meyitini çıxara bildik. Onları Ağdam rayonundakı məscidə gətirdik. Bu müqəddəs məkana çatanda gördük ki, uşaq tərpənir, sağdır. Bələkdə olduğuna görə şaxta onu tam dondurub öldürə bilməmişdi. Bir körpə həyatını xilas etdiyimə görə sevindim. Sonra vertolyotların uçuşu üçün təhlükə yarandığından gözləməli olduq. Bir neçə gündən sonra bizi Ağdam və Ağdərənin müdafiəsinə göndərdilər..."

O, ilk rəsmlərini divarlara və asfalta çəkib. Zaman keçdikcə bu sahəyə marağı daha da artıb. Çəkdiyim şəkillər ilbəil bir-birindən yaxşı alınırdı. Arzular əlindən tutub İntiqamı rəssamlıq məktəbinə aparıb. Sonra da I Qarabağ müharibəsi başlanıb. Onun savaş mövzusunda çəkdiyi rəsmlər daha çox diqqət çəkir. Bu, bəlkə də döyüşlərdə iştirak etdiyindən, qan-qadanı və göz yaşlarını öz gözləri ilə gördüyündən irəli gəlir. Elə yazının əvvəlində xatırladığım "Ümid var" əsəri buna görə böyük marağa səbəb olmuşdu.

Yeri gəlmişkən, bu gün artıq həmin ümid tam reallaşıb. II Qarabağ müharibəsində hərbçilərimiz Xocalının qisasını alıblar. Ötən ilin sentyabrında isə Xankəndi, Xocavənd, Ağdərə ilə bərabər, Xocalı da separatçı ünsürlərdən tamamilə təmizlənib. Bir neçə gün əvvəl isə Xocalının bərpaçıları orada çərşənbə tonqalı qalayıb, xonça bəzəyib, şənlik təşkil edilib. Xocalı sakini Elşən Vəliyev oxuduğu "Qarabağ" mahnısı ilə hər kəsə fərəhlə dolu duyğular bəxş edib. Yəni çərşənbə tonqalı ötən illərin ağrı-acılarının yanıb külə dönməsinin, diriliyimizn rəmzini ifadə edib.

Rəssamın "İsti qar", "Hücum" və sair bu kimi əsərlərinə müharibə təəssüratları, qələbə əzmi, intiqam kimi döyüş ovqatlı duyğular səpələnib. Ürəyindən keçənləri fırçanın dili ilə məharətlə deyə bilib.

İntiqam Ağayev çox yerdə görüşlərdə olub. Amma bir müddət öncə C.Naxçıvanski adına Hərbi Liseydə zabit və kursantlarla görüşü zamanı daha çox yaddaqalan bir gün yaşayıb: "Ordumuzun gələcək zabitləri qarşısında danışmaq, əsərlərini nümayiş etdirmək onun üçün çox qürurverici idi. Hərbi təhsilə böyük maraq göstərən kursantları görəndə ürəyim dağa döndü, gözlərimi sevinc hissləri yaşartdı. Bu tədbir məndə xoş təəssüratlar oyatdı. Belə görüşlər yaradıcılığıma müsbət təsir göstərir".

Ötən ilin 8 noyabrında – Zəfər Günündə Mədəniyyət Nazirliyi, Azərbaycan Televiziyası (AzTV) və Kino Agentliyinin birgə təşkilatçılığı ilə Muzey Mərkəzində "Döyüşən rəssamlar" adlı tədbir təşkil olunmuşdu. Orada rəssam qazilərə aid "Kətan, Vətən" adlı sənədli film göstərildi. Tərlan Eyvazov, Cavidan Rəhmətov, Fərid Əhmədov və İntiqam Ağayevin müharibəyə insani və yarıdıcı yanaşmalarının əks etdirildiyi film boyunca danışılan kövrək xatirələrin, işlənən rənglərin müşayiəti ilə 6 metrlik kətan üzərində çəkilən "Zəfərə gedən yol" adlı rəsm əsəri yaranaraq, gözlər önündə canlandı. Eyni zamanda sərgidə İntiqamın 18 əsəri təqdim olunub. Onların sırasında Aprel döyüşlərinə, Milli Qəhrəman Mübariz İbrahimova həsr olunan tablolar da var. "Barıt qoxulu" rəsmlər gənclərə vətənpərvərlik ruhunun aşılanmasında, gələcək nəsillərə bu ideologiyanın ötürülməsində böyük rol oynadı. Özü demişkən, dava mövzusunun qapıları fırçanı özü üçün silah sayan rəssam üçün hər zaman, beləcə, açıqdır.

Bu yazıda qazi rəssam İntiqam Ağayevin ən çox batal janrda – müharibə, döyüş səhnələri əks olunan əsərlərindən danışdıq. Çünki bu rəsmlər belə savaşı yox, qələbəni sevməyi təlqin edir. İnanırıq ki, qazandığımız Böyük Zəfərdən sonra onun daha çox quruculuq, gözəllik mövzulu rəsmləri ilə tanış olacağıq.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Xocalı qəhrəmanının bədii obrazı ədalətə çağırır

**Azərbaycan Dövlət Pedaqoji Universiteti Tələbə Gənclər Təşkilatı Gənclər Fondunun və Böyük Qayıdış Gənclər Təşkilatının dəstəyi ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində çap olunan, Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevdən bəhs edən "Qırmızı ləçəklər" romanının müəllifi, Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru Varislə görüş keçirib.**



Görüşdə yazıçı qələmə aldığı vətənpərvər ruhlu kitabları barədə məlumat verib. O, Əlif Hacıyevin həyatı və qəhrəmanlığının əks etdirildiyi romanın ərsəyə gəlməsindən, əsəri yazarkən keçirdiyi bədii düşüncələrdən söz açıb. Sonra gənc oxucuları maraqlandıran sualları cavablandıran müəllif imzalı kitablarını onlara hədiyyə edib.

Xatırladaq ki, Böyük Qayıdış Gənclər Təşkilatı dövlət sifarişi ilə yazılmış, Heydər Əliyev Fondunun "Xocalıya ədalət" kampaniyası çərçivəsində yayılan "Qırmızı ləçəklər" romanının ölkənin gənclər auditoriyasına təqdimatını silsilə şəklində davam etdirir.

***Ə.DOSTƏLİ***
***XQ***

(əvvəli 1-ci səhifədə)

Martın 5-də keçirilən praymerizlərin nəticələrini şərh etməzdən əvvəl, "super çərşənbə axşamı"nın nəyə görə ABŞ-da seçki yarışının əsas mərhələsinə çevrildiyinə aydınlıq gətirək.

"Super çərşənbə axşamı", fevralın sonu və ya martın əvvəlində çoxlu sayda ştatın eyni vaxtda praymeriz və kokusların keçirildiyi bir gündür. Bu fenomen 1980-ci illərdə ortaya çıxıb. O zaman bir neçə kiçik ştat prezident seçkisi yürüşünün gedişinə təsirlərini artırmaq üçün eyni gündə praymeriz keçirmək qərarına gəlib. Elə həmin vaxtdan da belə tədbirlər prezident seçkiləri ilində müntəzəm olaraq keçirilməyə başlayıb.

Bu gün "super çərşənbə axşamı" ilkin seçki kampaniyasının təşkilinin mühüm formalarından birinə çevrilib. Partiya nümayəndələrinin təxminən üçdə biri məhz bu gün seçilir. Prezidentliyə namizədlər üçün bu gün qələbə qazanmaq seçkilərin əsas mərhələsinə keçmək ehtimalının yüksək olması hesab edilir.

Bütün nümayəndə səslərinin, təxminən, üçdə biri "super çərşənbə axşamı" günü bölüşdürülür: Respublikaçılar üçün 865, Demokratlar üçün, ən azı, 1420.

2024-cü ildə "super çərşənbə axşamı" 16 ştatda və 1 ərazidə keçirilib: Arkanzas, Alabama, Kaliforniya, Kolorado, Massaçusets, Minnesota, Şimali Karolina, Oklahoma, Tennessi, Texas, Yuta, Vermont, Virciniya, həmçinin Alyaska və Men. Nümayəndələrin seçiminə Amerika Samoası da qoşulacaq. Bu, konstitusiyaya görə, ABŞ-a inteqrasiya olunmayan ərazidir, ona görə də onun sakinləri prezident seçkilərində səs verə bilməzlər, lakin partiya namizədlərinin seçimində iştirak etmək hüququna malikdirlər.

Nəticələr artıq bəllidir: ABŞ-ın 16 ştatında və bir adada Demokratlar və Respublikaçılar partiyalarının martın 5-də "super çərşənbə axşamı" keçirilən praymeriz və kokuslarında Amerikanın indiki Prezidenti Co Bayden və Ağ evin keçmiş rəhbəri Donald Tramp, demək olar ki, bütün səsvermələrdə qələbə qazanıblar.

Bayden, əslində, "super çərşənbə axşamı" namizədliyi üçün lazım olan səsləri almaya da bilərdi. Çünki bu gün onun partiyası daxilində prezidentdən narazılığın nə qədər güclü olduğunu göstərməli idi. Yeddi ştatın "hamıya yox" demək ehtimalları var idi. Fəallar seçiciləri məhz prezidentin İsrailin Fələstinin "HƏMAS" hərəkatı ilə müharibəsi ilə bağlı mövqeyinə etiraz etmək üçün bu xüsusi variantı seçməyə çağırırdılar. Amma bu çağırışlar nədənsə Şimali Karolinada keçirilən praymerizlərdə olduğu kimi özünü doğrultmadı.

"Associated Press" agentliyi bildirib ki, ikinci müddətə prezidentliyə namizəd olan Bayden, Amerika Samoası ada ərazisi istisna olmaqla, "super çərşənbə axşamı" keçirilən praymerizlərdə hər ştatda 70–90 faiz səslə qalib gəlib. Samoa adasında isə Ağ evin hazırkı sahibi elə də çox tanınmayan demokrat namizəd, sahibkar Ceyson Palmerə uduzub. Birləşmiş Ştatların bu ərazisində Bayden 40, Palmer isə 51 səs qazanıb.

ABŞ-ın hazırkı prezidentinin 52 yaşlı opponenti Baltimordan olan bir investordur. "Daily Mail" nəşri onun seçki qərargahının məlumatına istinadən bildirir ki, Palmer son vaxtlar adada yaşayıb. Əvvəllər o, "Microsoft", "Kaplan Education", Bill və Melinda Qeyts Fondunda çalışıb və Harvard biznes məktəbini bitirib.

Martın 5-də bütün nəzərlər müəmmalı qalan yeganə ştat Şimali Karolinaya dikilmişdi. Çünki 2020-ci ildə Tramp orada Baydeni bir faizdən bir qədər çox qabaqlamışdı. Amma "NBC News" xəbər verir ki, Prezident Bayden Vircinya, Şimali Karolina və Vermontda daha tez qələbə qazanaraq rəqiblərini geridə buraxıb. O, həmçinin Demokratlar Partiyasının Kolorada ştatındakı praymerizində də nümayəndələrin 54 səsini alaraq qalib gəlib.

Tramp isə Kaliforniya və Texas da daxil olmaqla 13 ştatda keçirilən partiyadaxili seçkilərdə qalib gələrək, rəqibi Heylini məğlub edib. Bu, gözlənilən idi, çünki bu ərəfədə keçirilən sorğularda Tramp 77,5 faiz səslə 15,7 faiz səs toplayan Nikki Heyli əminliklə üstələyirdi. ABŞ-ın BMT-dəki keçmiş səfirinin yalnız Vermontda qələbə qazana bilməsi təsadüfi deyildi və onu göstərirdi ki, onun artıq prezidentliyə namizəd olmaq üçün heç bir real şansı yoxdur. Vermontda isə cəmi 17 nümayəndənin səsi uğrunda mübarizə gedirdi və bu da çox kiçik bir rəqəm idi.

Buna qədər yalnız Vaşinqton ştatında keçirilən praymerizdə qələbə qazanan Heylinin seçki kampaniyasını səxavətlə və fəal şəkildə maliyyələşdirən sponsorlar da bunu yaxşı dərk edirdilər. Onlar yavaş-yavaş öz dəstəklərini məhdudlaşdırırdılar. Çünki Heylinin artıq qələbəyə aparan elə bir planı yoxdur. "Super çərşənbə axşamı" Heylinin rəqibi Trampın ümummilli seçkilər ərəfəsində liderliyini möhkəmləndirməsinə və ya onun potensial zəifliklərini üzə çıxarmasına mane olmaq üçün son şans idi.

Eks-prezident Tramp 5 martda Respublikaçılar Partiyasının Texasdakı praymerizində qalib gələrək üstünlüyünü daha da möhkəmləndirdi. Trampın "yaqut-qırmızı" Texasda qələbəsi ona mühafizəkar cənub ştatlarında möhkəm dayaq verir. Burada onun kampaniyada qalib gələcəyi gözlənilir. Ağ evin keçmiş sahibi çıxışlarının çox hissəsini immiqrasiyaya yönəldir və ABŞ-ın cənub sərhədində miqrantların artmasına görə Prezident Baydeni günahlandırdı. Əlbəttə, bu məzmunda mesajların ənənəvi mühafizəkar texaslılarda dəstəklənəcəyi şübhəsizdir, – deyə "The Hill" nəşri xəbər verir.

Tramp "super çərşənbə axşamı" praymerizlərinin əksəriyyətində üstünlüyü ələ alaraq, prezidentliyə namizədliyi üçün respublikaçılardan yüzlərlə əlavə nümayəndənin səsini qazandı. Heyli bu ştatların heç birində ona yaxınlaşa bilmədi.

"Super çərşənbə axşamı" səsvermənin başqa bir xüsusiyyəti ondan ibarətdir ki, bir neçə ştatda, partiya mənsubiyyətindən asılı olmayaraq bütün seçicilər praymerizdə iştirak edə bilərdi. Onlardan biri respublikaçı seçicilərinin nisbətən mötədil imici olan Virciniyadır. Burada Heyli qalib gəlmək üçün ən yaxşı şansa sahib idi. Lakin bu da alınmadı.

Mühafizəkar yönlü "Fox News" Trampın son qələbəsini ABŞ tarixində siyasətçi üçün "ən böyük tarixi dönüş" adlandırıb. Ötən sayımızda bildirdiyimiz kimi, bir gün əvvəl ABŞ Ali Məhkəməsin Trampın seçki bülletenindən kənarlaşdırıla biləcəyi ilə bağlı Kolorado Ali Məhkəməsinin arqumentlərini rədd etmişdi və bu da "super çərşənbə axşamı" qələbəsi ilə birlikdə eks-prezidentə 2024-cü il prezident seçkilərində matç-revanşa real şans verirdi. Bundan əlavə, məhkəmə Trampın vəzifədə olarkən mütləq prezident toxunulmazlığının olub-olmaması ilə bağlı müraciətini də qəbul edib. Bu, onun 2021-ci il 6 yanvar Vaşinqton hadisələri – Kapitoliya binasına hücumu ilə bağlı işinə baxılmasını, ən azı, yaya qədər təxirə saldı və Trampın komandasına diqqəti seçkilərə yönəltmək imkanı verdi.

"Super çərşənbə axşamı" keçirilən praymerizlərdəki qələbədən sonra namizəd olacağına şübhə yeri qalmayan Tramp günün hadisələrini şərh edərək, martın 5-i gününü "möhtəşəm axşam" adlandırıb.

"Fox News"un məlumatına əsasən, Floridadakı Mar-a-Laqo mülkündə tərəfdarları qarşısında danışan Tramp deyib: "Onlar bu günü təsadüfən "super çərşənbə axşamı" adlandırmırlar...Heç vaxt bu qədər inandırıcı bir şey olmayıb. Bu, heyrətamiz bir gecə idi, heyrətamiz bir gün idi..."

Tramp Baydenin immiqrasiya siyasətini sərt tənqid edərək onu tarixin "ən pis prezident"i adlandırıb. O, deyib: "Şəhərlərimiz Baydenə görə ABŞ-a axışıb gələn miqrantların cinayətləri ilə doludur. Bu cinayətlərin tamamilə yeni bir kateqoriyasıdır. Dünya bizə gülür. Dünya bizdən sui-istifadə edir".

Tramp öz prezidentliyi dövründə ABŞ-ın dünyanın ən hörmətli ölkəsi olduğunu vurğulayaraq deyib ki, indi dünya Vaşinqtona hörmət etmir və ölkəni gülüş obyektinə çevirir. Tramp çıxışında iqtisadiyyat problemlərinə də toxunub, Baydeni xarici siyasətdəki uğursuzluqlarına görə qınayıb, lakin bir dəfə də olsun rəqibinin adını çəkməyib.

Bayden də, öz növbəsində, Trampı yenidən Amerika demokratiyası üçün təhlükə adlandırıb. "Bugünkü nəticələr Amerika xalqını aydın seçim qarşısında qoyur: Biz irəliləməyə davam edəcəyik, yoxsa Trampın bizi xaosa, parçalanmaya və qaranlığa sürükləməsinə icazə verəcəyik?" – deyə Bayden tərəfdarlarına müraciət edib.

Bayden və Tramp yaxşı bilirlər ki, onların namizədliyi artıq müəyyən edilib. Bunun nəticəsidir ki, son günlər onlar bir-birinə qarşı sərt mübarizəyə köklənibələr. Elə hər iki siyasətçinin ötən cümə axşamı Meksika ilə sərhəddə eyni vaxtda peyda olması da təsadüfi deyildi.

Məsələ burasındadır ki, "super çərşənbə axşamına" qədər seçicilərin, təxminən, üçdə biri qeyri-qanuni immiqrasiya problemini ölkənin əsas problemi adlandırmışdı. Prezidentin yaşı ilə bağlı məsələnin də yer aldığı idarəetmə böhranı ikinci yerdə idi. Üçüncü problem iqtisadiyyat, dördüncü çağırış inflyasiya idi. Bu mövzuların əksəriyyətində amerikalılar Trampa daha çox inanırlar.

"Fox News"un keçirdiyi sorğuya əsasən, respondentlərin 71faizi Baydenin immiqrasiya siyasətində uğursuzluğa düçar olduğuna əmindir. 61 faizi isə iqtisadi siyasətdən narazıdır. Bəlkə elə bu səbəbdəndir ki, 4 il əvvəl Baydenə səs verən seçicilərin, təxminən, 10 faizi bu dəfə Trampı dəstəkləyəcəklərini bildirib.

**PS .** Axşama yaxın bəlli oldu ki, "super çərşənbə axşamı"ndan sonra Tramp buna qədər topladığı 276 nümayəndənin səsinə daha 781 səs əlavə edərək, namizədliyinin təsdiq olunması üçün tələb olunan 1215 səsdən 1057 səsə sahib olub.

5 marta qədər partiya nümayəndələrinin 206 səsini toplayan Prezident Bayden isə martın 5-də 1358 səs toplayaraq ümumi səslərin sayını 1564-ə çatdırıb. Bundan sonra qalan praymerizlərdə eks-prezidentə daha 158, Baydenə isə namizədliyini təsdiqləmək üçün daha 404 partiya nümayəndəsinin səsi lazım olacaq.

Beləliklə, Tramp–Bayden qarşılaşmasının matç-revanşı başlayır. Bu dəfə kim qalib gələcək, onu noyabrda görəcəyik!

**İlqar RÜSTƏMOV**
**XQ**



# Tramp–Bayden: Matç-revanş başlayır

# Qərbi Avropa "köhnə" qitədə hökmrandır



**Yaxın zamanda NATO-ya üzv ölkələrin və Avropa İttifaqının (Aİ) liderləri Şimali Atlantika Alyansına kimin rəhbərlik edəcəyinə və Aİ rəhbərliyində əsas vəzifələri kimin tutacağına qərar verəcəklər. Böyük ehtimalla hər iki strukturda bütün əsas vəzifələr yenidən Qərbi Avropa nümayəndələrinə keçəcək. Lakin belə perspektiv Şərqi Avropa ölkələrini razı salmır və keçmiş sosialist düşərgəsindən ayrı-seçkilik barədə ittihamlar səsləndirilir.**

Şərq Avropa "üsyanı NATO-nun yeni baş katibi vəzifəsinə namizədin seçilməsi prosesi zamanı başlayıb. Bu il oktyabrın 1-də alyansın hazırkı rəhbəri norveçli Yens Stoltenberq öz vəzifəsində onilliyini qeyd edəcək. NATO-ya üzv ölkələrin liderləri əvvəlki illərdə ona layiqli əvəz tapmağa çalışsalar da, yalnız bu ilin əvvəlində əsas namizədin kimin olacağı müəyyənləşib. Qərb mətbuatının yazdığına görə, Alyansın rəhbəri postuna əsas namizəd Mark Ruttedir və Hollandiyanın baş nazirini NATO-nun iyirməyə yaxın ölkəsi, ən əsası, hərbi ittifaqın büdcəsinin ən böyük donoru və tərkibində ən böyük orduya sahib olan ABŞ dəstəkləyir.

Ancaq Şərqi Avropa ölkələri belə bir seçimin faktiki əvvəlcədən müəyyən edilməsi ilə razılaşmır. Məsələn, Rumıniya ilk səsvermədə iştirak edərək, öz prezidenti Klaus İohannisin NATO-nun baş katibi vəzifəsinə namizədliyini irəli sürüb. Daha sonra Baltikyanı ölkələr Mark Ruttenin müraciətinə etiraz etməyə başlayıblar. Məsələ ilə bağlı daha çox Estoniya narazılığını bildirib. Ölkənin baş naziri Kaja Kallas "Politico"ya müsahibəsində deyib ki, coğrafi balans düşünülərsə, bu, Hollandiyadan olan dördüncü baş katib olacaq: "Burada sonra sual yaranır: NATO-da birinci və ikinci dərəcəli ölkələr varmı? Biz bərabərik, ya yox? Bu suallar hələ də qalır".

Siyasi şərhçilər vurğulayırlar ki, Şərqi avropalıların və Baltikyanı ölkə nümayəndələrinin incikliyini anlamaq olar. İndiyədək region ölkələrindən heç biri NATO-ya rəhbərlik etməyib. Şərqi avropalılar hazırda Avropa Komissiyası (AK), Avropa Şurası və Avropa Parlamenti (AP) kimi Aİ-nin aparıcı qurumlarındakı vəzifələrin heç birində də təmsil olunmayıblar. Son 20 il ərzində bu məsələdə yalnız Polşa irəliyə gedib. Ölkənin Baş naziri Donald Tusk 2014-2019-cu illərdə Avropa Şurasına rəhbərlik edib, digəri sabiq baş nazir Yerji Buzek isə 2009–2012-ci illərdə Avropa Parlamentinin rəhbəri olub. Hazırda Şərqi Avropanın aktivində yalnız iki yüksək vəzifə var. Latviyalı Valdis Dombrovski hazırda AK-nın icraçı vitse-prezidentidir, rumıniyalı siyasətçi Mirçe Coane isə NATO Baş katibinin müavini postunda çalışır.

1995-ci ildə NATO ilk dəfə olaraq alyansın yaradılmasının mənşəyində olmayan bir ölkədən olan bir şəxsi - o vaxt İspaniyanın nümayəndəsi olmuş Xavyer Solanı baş katib vəzifəsinə təyin etmək qərarına gəlmişdi. O zaman İspaniyanın NATO-ya üzv olmasından cəmi 13 il ötmüşdü. Mütəxəssislər deyirlər ki, indi Şərqi Avropa liderlərindən birini alyansın yeni lideri təyin etmək üçün doğru məqamdır. Məsələn, Polşa NATO-ya 1999-cu ildə üzv olub və Varşavanın da Alyansa rəhbərlik etmək haqqı var.

Amma Qərbi Avropa ölkələrinin başçılarının ekspertlərin çağırışlarına və şərqli həmkarlarının iddialarına qulaq asıb-asmayacaqları hələ də bəlli deyil. Ehtimal olunur ki, Avropada onlar Polşanın hazırkı xarici işlər naziri Radoslav Sikorskinin Avropa Komissarlığının müdafiə üzrə komissarı təyin olunmasına həvəslə yanaşırlar. Bununla belə, Estoniya baş nazirinin Avropa perspektivlərini barədə iddialarının Qərbi Avropada müsbət qarşılanacağı real görünmür. Son bir neçə ay ərzində Avropada Estoniyanın baş nazirinin Xosep Borreldən sonra Aİ-nin xarici siyasət və müdafiə üzrə ali nümayəndəsi olmaq istəməsi barədə danışılır. Lakin "Politico" diplomatik mənbələrə istinadən yazır ki, Fransa və Almaniyada bu fikir o qədər də həvəslə qarşılanmayıb. Belə görünür, keçmiş sosialist düşərgəsinin sakinləri "Köhnə qitə"də strateji postları tutmaq üçün hələ çox gözləməli olacaqlar.

**S.ELAY**
**XQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 12 mart 2024-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu – (012) 404-37-00, daxili:1016.
Ünvan – AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün separatorların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 12 mart 2024-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu – (012) 404-37-00, daxili:1016.
Ünvan – AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

"Azneftmaşservis" ASC səhmdarlarının nəzərinə!

2 may 2024-cü il saat 9.00-da "Azneftmaşservis" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2023-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı. Dividendlərin bölüşdürülməsi.
2. İllik hesabatların təsdiq edilməsi.
3. Təşkilati məsələ. ASC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyindəki məsələlərə aid materiallarla tanışlıq üçün iş günlərində ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu-(012) 514-19-50.

Ünvan-Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə, 507-ci küçə, ASC-nin inzibati binası.

QEYD – səhmdarlardan xahiş edilir ki, əgər yığıncağın keçirilmə tarixi karantin dövrünə düşərsə,yaxud digər məhdudiyyətlər olarsa, onda elanda göstərilən telefonla əlaqə saxlayıb yığıncağın online keçirilməsində iştirak etmək üçün aktiv əlaqə nömrələrini təqdim edib qeydiyyatdan keçsinlər. "GoToMeeting" saytı (936369133) kodu vasitəsi ilə qoşulun.

**İdarə heyəti**

# Anti-Azərbaycan kampaniyaları ABŞ-dən körüklənir



**Toplum TV-nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi Qərb institutlarının Azərbaycan qanunlarına zidd şəkildə medianı, jurnalistləri və ayrı-ayrı şəxsləri maliyyələşdirməsinə dair ciddi dəlillərin müəyyən edilməsi ilə bağlıdır.**

Trend xəbər verir ki, bundan əvvəl Abzas Media ilə əlaqədar analoji tədbirlər həyata keçirilib və məlum istiqamət üzrə aparılan istintaq tədbirləri zamanı çoxsaylı qanun pozuntuları müəyyən edilib. Faktlar geniş şəbəkə yaradılmaqla qanunsuz maliyyə maxinasiyalarının həyata keçirildiyinə və çirkli pulların yuyulduğuna dəlalət edir.

Maliyyə Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülüb, Şərqdə terror təşkilatlarının da istifadə etdiyi həvalə mexanizmi, adsız kartlardan geniş istifadə olunub. Məlum hal Qərbin müəyyən dairələrinin öz fəaliyyətini səngitmədiyini, Azərbaycanda qarışıqlıq yaratmaq üçün bütün mümkün vasitələrdən istifadə etdiklərini göstərir.

Baş verənlər fonunda Azərbaycana qarşı xarici mediada qarayaxma kampaniyası davam etdirilir, gündəlik qaydada onlarla əsassız ittihamlarla dolu materiallar verilir.

Maraqlıdır ki, Azərbaycana qarşı təşkil olunan kampaniyaların arxasında xarici agent statusundan geniş yararlanmaqla, xarici dəstək almaqda və ya xarici təsir altında olmaqda şübhəli bilinən şəxslərə qarşı tədbir görən ABŞ dayanır. Öz daxilində hər hansı xarici təsiri qadağa edən, buna görə vətəndaşlarını məsuliyyətə cəlb edən ABŞ digər ölkələrdə, o cümlədən də Azərbaycanda bu işləri böyük həvəslə həyata keçirir.

Avroliqa: səkkizdəbir final!

# Müzəffər “Qarabağ” – məğlubedilməz “Bayer”

**Bu gün daha böyük sınaq günüdür. Bakı, bütün Azərbaycan, “Qarabağ”ı öz komandası bilən qardaş Türkiyə UEFA Avropa Liqası turnirində tarix yazmaqda davam edən səmimi və mübariz Ağdam kollektivinin Almaniyanın Leverkuzen şəhərinin “Bayer” klubu ilə səkkizdəbir final görüşünü səbirsizliklə gözləyir. Həm də qürurla, ümidlə. Hərçənd rəqib Avroliqa yolunda qarşımıza çıxan ən zəhmli klubdur. Bundesliqa, Almaniya kuboku və beynəlxalq meydanda ardıcıl 34 oyunda bir dəfə də uduzmayan “Bayer” və onun ispan baş məşqçisi Xabi Alonso dünyanın diqqət mərkəzindədir.**




Elə pley-offda Portuqaliyanın “Braqa”sını iki oyunun yekununda (6:5) silahı yerə qoymağa məcbur edən Azərbaycan çempionunun və onun baş məşqçisi Qurban Qurbanovun da ünvanına bu günlərdə az tərif eşitmirik. Beynəlxalq dairələrin rəğbətini qazanmaq isə ikiqat fərəhlidir. “Qarabağ” oynadığı yaxşı futbolla, güclü rəqiblər üzərində qazandığı layiqli qələbələrlə özü ilə yanaşı, təmsil etdiyi Azərbaycanı da, onun həqiqətlərini də Avropaya və dünyaya daha yaxından tanıdır.



Braqalılarla Bakı matçından sonra Portuqaliya mətbuatının 120+2-ci dəqiqədə qonaqların qapısına yol tapıb, onların bütün ümidlərini alt-üst edən Nəriman Axundzadəni “gənc istedad”, meydanda yorulmaq bilmədən böyük faydalı iş həcmini yerinə yetirən Marko Yankoviçi “maestro” adlandırması, digər Marko-Veşoviçi isə özünü hər yerə çatdıran “inadkar” oyunçu hesab etməsi təsadüfi deyil. Onlarla yanaşı, oyun ərzində dəfələrlə yüksək sürətlə 35-40 metr məsafə qət edib, rəqib qapısı ağzında gərgin vəziyyətlər yaradan Elvin Cəfərquliyev, İspaniyanın “Betis”, Yunanıstanın PAOK, Xorvatiyanın “Hayduk” klublarının maraq dairəsinə düşən Bəhlul Mustafazadə və “Braqa” ilə Bakıdakı oyunun qəhrəmanlarından biri Bədavi Hüseynovun, bütün komandanın bu gün Ağdam şəhəri təmsilçisinin Çempionlar Liqasından sonra qitənin ən nüfuzlu ikinci klub turnirinin səkkizdəbir finalçısı olmasında xidmətləri böyükdür.

Baş məşqçimiz Q.Qurbanovun “Braqa” ilə görüşün ən ağır dəqiqələrində Mateus Silva ilə N.Axundzadəni meydana çıxardığını da hələ çox xatırlayacağıq. Portuqaliyada ilk oyunda Silva qapımıza penalti təyin edilməsinə səbəb olmuşdu, Nəriman isə hesabı 5:2-yə çatdırmaq imkanını itirmişdi. Cavab görüşündə gərginliyin son həddə çatdığı anlarda Qurban müəllimin hər iki futbolçunu döyüşə göndərməsi, başqa sözlərlə desək, od-alov içinə atması özünü tam doğrultdu. “Qarabağ”ın hər iki topunu məhz bu futbolçuların vurması məşqçinin böyük uğuru, yüz ölçüb, bir biçdiyi həlledici qərarın bəhrəsi idi.

Görüşün yarısından da çox hissəsini on nəfərlə oynamağa məcbur qalan komandanın döyüşkən ruhu, üstəgəl, onun sadiq pərəstişkarlarının gecəyarısı soyuq havada möhkəm dəstəyinin nəticəsidir ki, Avropa mətbuatı “Qarabağ”ın qitəmizi təəccübləndirməkdə davam etdiyini yazır, xarici ölkələrdə bəzi klubların futbolçularının birlikdə “Qarabağ”—“Braqa” qarşılaşmasını izlədiklərini eşidirik.

Göründüyü kimi, “Qarabağ” getdikcə böyüyür. Böyüdükcə də beynəlxalq futbolda ona hörmət və rəğbət də artır, UEFA rəsmiləri bizə daha isti münasibət göstərir, “Qarabağ”ın heç bir rəqibdən çəkinmədiyini, istənilən vəziyyətdə adət etdiyi hücum futbolu oynamağa üstünlük verdiyini görürük. Bu isə o deməkdir ki, Azərbaycan çempionu düzgün yoldadır, əzmkarlığı, zəhməti nəticəsiz qalmır.

Ağdam komandasının bu gün Avroliqanın ən güclü 16 klubu sırasında addımlaması “Qarabağ”ın da, eyni bir kollektivin “sükanı arxasında” uzunmüddətli və səmərəli fəaliyyəti nümunə göstərilən Q.Qurbanovun da dünya və Avropa reytinq siyahılarında durmadan mövqelərini yaxşılaşdırır, onları bir çox məşhur klub və məşqçilərdən irəli çıxarır. UEFA Avropa Liqası turnirində dörddəbir finalın astanasında olan komandamız artıq çox böyük iş görmüşdür. Zarafat deyil, “Qarabağ” indiki yarışda səkkizdəbir final sevinci yaşayan keçmiş Sovet İttifaqının yeganə təmsilçisidir.

Müzəffər “Qarabağ”—məğlubedilməz “Bayer” görüşündə hakimin saat 21:45-də səslənəcək start işarəsinə az qalır. Azərbaycan çempionu çox sağ olsun ki, “Bayer” kimi bir klubu son 4-5 ayda ikinci dəfə Bakıya gətirib. Bu rəqiblərin sadə və təvazökar məşqçilərinin Leverkuzendə görüşüb, təcrübə mübadiləsi aparmaları da qarşıdakı görüşə xüsusi məna verir. İzləməyə hazırlaşdığımız oyun həm də Qurbanov—Alonso rəqabətidir. Görək, təcrübə mübadiləsindən kim daha çox fayda götürüb.

“Qarabağ” oktyabrda qrup mərhələsi çərçivəsində səfərdə “Bayer”ə böyük hesabla uduzmuşdu (1:5), noyabrda öz meydanında yalnız son dəqiqələrdə penalti ilə buraxdığı qolla məğlub oldu (0:1). İndi isə erkən bahardayıq, 90 dəqiqə ərzində meydanda baş verəcək hadisələrdən və qeydə alınacaq nəticədən asılı olmayaraq, bütün hallarda böyük futboldan zövq alacağıq. Bu imkanı bizə yaradan isə, bir daha təkrar edək, son nəfəsədək döyüşməyi bacaran “Qarabağ” komandasıdır!

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Bakıda idman paradı



**Hövsan Olimpiya İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman İdarəsinin (BŞGİİ) təşkilatçılığı ilə idman paradı keçirilib.**

BŞGİİ-nin idman sektorunun müdiri Rəşad Əliyev 5 Mart – Bədən Tərbiyəsi və İdman Gününün önəmindən danışıb. Qeyd edilib ki, bu əlamətdar gün ölkəmizdə kütləvi idman tədbirləri ilə qeyd edilir.

Bakının 12 rayonunu təmsil edən gənclər paraddan keçiblər.

Tədbirin rəsmi hissəsindən sonra müxtəlif idman növlərində nümunəvi çıxışlar nümayiş etdirilib.

Daha sonra gənclərin iştirakı ilə fləşmob olub.

## Antidopinq hesabatı




**Fransanın Strasburq şəhərində Ümumdünya Antidopinq Agentliyi (WADA) üzrə Ad Hoc Avropa Komitəsinin (CAHAMA) 63-cü iclası keçirilib.**

Tədbirdə ölkəmizi Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) icraçı direktoru Təhminə Tağı-zadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İki gün davam edən iclasda müxtəlif milli antidopinq təşkilatlarının nümayəndələri dopinqlə mübarizə sahəsində mühüm məsələləri müzakirə ediblər. Tədbirin gündəliyinə ötən iclasın hesabatının təsdiqi, CAHAMA-nın iş metodlarının müzakirəsi, katiblikdə yeniliklər və gələcək görüşlərin planlaşdırılması kimi müxtəlif məsələlər daxil edilib.

## Üzgüçülərimizin Riqa uğuru

**Azərbaycanın üzgüçülük komandası Latviyanın paytaxtı Riqada keçirilən turnirdə uğurla çıxış edib.**




Kişilərdən ibarət yığma 4x200 metr məsafədə sərbəst üsulla üzmə yarışında qızıl medal qazanıb. Şəxsi yarışlarda açıq yaş qrupunda müxtəlif növlər üzrə Əbdürrəhman Rüstəmov, Süleyman İsmayılzadə gümüş, Oqtay Hüseynov, Səid Həmidov, Mehri Əbdürrəhmanlı bürünc mükafatlar qazanıblar.

S.İsmayılzadə və M.Əbdürrəhmanlı öz yaşıdları arasında rekordları yeniləyiblər.

Qeyd edək ki, yarışa ilk dəfə rekord sayda, 760 idmançı qatılıb.

*Leyla SABİRQIZI*
*XQ*

Hava

## Abşeronda dumanlı, bölgələrdə yağıntılı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən, martın 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə duman, az çiskin, gecəyə doğru isə yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Gecə 3-6°, gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında dağlıq ərazilərdən başlayaraq, bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 10-15° isti, dağlarda gecə 2° şaxtadan 3° -dək isti, gündüz 3-6° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

Texnologiya



## Süni intellektin yeni bacarıqları

**Son illərdə süni intellekt sürətlə insanların gündəlik həyatının bir hissəsinə çevrilir. Dizaynerlər indi süni intellektlə işləyən proqramlar vasitəsilə daxil edilən əmrlər əsasında yalnız bir toxunma ilə reklam afişaları və vizual məhsullar yarada bilirlər. İfaçılar çox qısa müddət ərzində mahnılar yaradır və süni intellektlə işləyən hüquqşünas tətbiqinin köməyi ilə məhkəmə işinə “dərhal” baxılır.**

Bundan əlavə, smartfonlarda səsli köməkçilər, avtonom sürücülük sistemləri, ağıllı yollar, onlayn alış-veriş saytlarında alqoritmlər və tibbi təsvirlər süni intellekt sayəsində fəaliyyət göstərir.

Mərmərə Universitetinin Vizual Ünsiyyət Dizaynı Departamentinin rəhbəri, professor Əli Murat Kırık bildirib ki, texnologiyanın öyrənilməsi (Machine Learning), dərin öyrənmə (Deep Learning) və təbii dil birləşməsindən ibarət olan süni intellekt sistemi Türkiyədə və dünyada getdikcə geniş yayılır.

Professor xatırladıb ki, Avropa Parlamenti süni intellektdən istifadəni tənzimləyən qanun qəbul edib. Türkiyədə də belə qanunların qəbulu mümkündür. Kırık deyib ki, Türkiyədə əsasən ASELSAN, HAVELSAN şirkətləri, eləcə də Elmi və Texniki Araşdırmalar Şurasının (TÜBİTAK) iştirakı ilə süni intellekt sahəsində fəal inkişaf tendensiyası davam edir.

*P.ƏMİRCANOV*
*XQ*

*✓ Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Kərimov Şahsuvar Kərim oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ 2017-ci ildə Həsənli Sədi Ədalət oğlunun adına verilmiş AD seriyalı, 0037360 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3915
SİFARİŞ 523
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00